DİQQƏT!

SƏS QƏZETİNDƏN NOVBƏTİ YENİLİK!

Səs qəzeti artıq Azərbaycanda ilk dəfə olaraq Video qəzet formatında nəşrə başladı.

Video xəbəri izləmək üçün telefonunuzun kamera bolməsinə daxil olub QR kodunu telefonunuza oxuduraq ekrana gələn linkə daxil olun.
**QEYD:** Android telefonlar üçün QR Code Reader skine proqramını telefonunuza yükləyərək videolara daxil ola bilərsiniz.



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

SƏS

QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 188 (6152) 23 oktyabr 2020-ci il. Qiyməti 40 qəpik

"Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı.

## Mehriban Əliyeva: "Bu gün Prezident İlham Əliyev başda olmaqla Azərbaycan xalqı yeni tarix yazır"



Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva Trend İnformasiya Agentliyinə müsahibə verib. AZƏRTAC müsahibəni təqdim edir.

Bax 7

## Putin: "Azərbaycan ərazisinin əhəmiyyətli bir hissəsinin itirildiyi vəziyyət əbədi davam edə bilməz"

Azərbaycan ərazisinin əhəmiyyətli bir hissəsinin itirildiyi vəziyyət əbədi davam edə bilməz. AZƏRTAC xəbər verir ki, bu fikri Rusiya Prezidenti Vladimir Putin "Valday" klubunun iclasında bildirib. Rusiya Prezidenti Azərbaycan və Ermənistan...



Bax 7

## Prezidentin köməkçisi: Ermənistanın ağılsızlığının həddi-hüdudu yoxdur



Bax 8

Azərbaycanın möhtəşəm turizm mərkəzi olan və hərbi əməliyyatların aparıldığı ərazidən uzaqda olan Qəbələ şəhəri Ermənistanın raket zərbələrinə hədəf olub...

# PREZİDENTDƏN yeni zəfər müjdəsi!

## İlham Əliyev: Azərbaycan Ordusu Zəngilan rayonunun 13 kəndini və Ağbənd qəsəbəsini, Füzuli rayonunun 3, Cəbrayıl rayonunun 4 kəndini işğaldan azad edib

Müzəffər Azərbaycan Ordusu Zəngilan rayonunun Kolluqışlaq, Malatkeşin, Kənd Zəngilan, Genlik, Vəliqulubəyli, Qaradərə, Çöpədərə, Tatar, Tiri, Əmirxanlı, Qarqulu, Bartaz, Dəlləkli kəndlərini və Ağbənd qəsəbəsini işğaldan azad etmişdir. Eşq olsun Azərbaycan Ordusuna! Qarabağ Azərbaycandır! AZƏRTAC xəbər verir ki, bu barədə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev özünün rəsmi "Twitter" səhifəsində bildirib.

***

Müzəffər Azərbaycan Ordusu Füzuli rayonunun Mollavəli, Yuxarı Rəfədinli, Aşağı Rəfədinli, Cəbrayıl rayonunun Sirik, Şıxlar, Məstalıbəyli, Dərzili kəndlərini işğaldan azad etmişdir. Eşq olsun Azərbaycan Ordusuna! Qarabağ Azərbaycandır!

AZƏRTAC xəbər verir ki, bu barədə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev özünün rəsmi "Twitter" səhifəsində bildirib.



## Müdafiə Nazirliyi: Azərbaycan Ordusu qələbə əzmi ilə döyüşləri davam etdirir



Bax 8

## Adil Əliyev: İşğaldan azad olunan ərazilərimizə yeni nəfəs gələcək!



Bax 9

## ABŞ-ın NATO-dakı səfiri: "Ermənistan Azərbaycanın suveren sərhədlərini tanımalıdır"



Bax 10

# İlham Əliyev: “Azərbaycan özü döyüşür. Bizim heç bir xarici döyüşçüyə ehtiyacımız yoxdur”

*Prezident İlham Əliyev Yaponiyanın “Nikkei” qəzetinə müsahibə verib*

***Xəbər verdiyimiz kimi, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 21-də Yaponiyanın “Nikkei” qəzetinə müsahibə verib. AZƏRTAC müsahibəni təqdim edir.***



***“Dağlıq Qarabağdakı ermənilər əmin ola bilərlər ki, Azərbaycan vətəndaşları olaraq onların təhlükəsizliyi təmin ediləcək”***

***- Dağlıq Qarabağ münaqişəsi haqqında soruşmaq istəyirəm. Azərbaycanın və Ermənistanın xarici işlər nazirləri cümə günü Vaşinqtona səfər edəcəklər. Bu görüşdən nə gözləyirsiniz? Siz üçtərəfli formatda bəzi şərtlərlə danışıqlara hazırsınızmı?***

- Bilirsiniz ki, əslində, Amerika Birləşmiş Ştatları, Rusiya və Fransa Ermənistan və Azərbaycan arasında olan münaqişənin həll yolunu tapmaq üçün mandatı olan Minsk qrupunun üç həmsədr ölkələridir. Ona görə bizim nazirlərimizin bu üç paytaxtda görüşməsi təbiidir. Bu cür görüşlər əvvəllər dəfələrlə olmuşdur. Bilirsiniz ki, Moskvaya da səfər edilmişdir, orada da görüş olmuşdur. Beləliklə bu, münaqişənin sülh yolu ilə nizamlanması üzrə danışıqların davamıdır. Əlbəttə ki, indi yerdə vəziyyət dəyişmişdir. Satus-kvo artıq mövcud deyil. Təmas xətti də mövcud deyil. Buna görə, əlbəttə, mən hesab edirəm ki, indi Ermənistan rəhbərliyi daha da məntiqli davranmalıdır və işğal edilmiş ərazilərin boşaldılmasına sadiq olmalıdır. Beləliklə, bu müzakirələrdə bizim əsas məqsədimiz Ermənistan rəhbərliyinin ərazilərimizin boşaldılmasına hazır olub-olmamasını və hazır olduğu təqdirdə bunun nə vaxt baş verəcəyini müəyyən etməkdir.

***- Prezident Putin Sizi də Moskvaya dəvət edib?***

- Xeyr.

***- Dəvət olunsaydınız, getməyə hazırsınızmı?***

- Mən dəfələrlə Prezident Putin tərəfindən dəvət olunmuşam və Moskvaya dəfələrlə səfər etmişəm. Bəzi illərdə hətta il ərzində bir neçə dəfə səfər etmişəm. Odur ki, bu yüksəksəviyyəli təmasların tərəfdaş və qonşu ölkələr arasında olması adət edilmiş bir haldır. Həmçinin Prezident Putin də Azərbaycana dəfələrlə səfər edib.

***- Əgər cümə günü nazirlərin görüşündə hər hansı bir irəliləyiş olsa, Moskvada Ermənistanın baş nazirinin qatılacağı üçtərəfli görüş keçirilə bilərmi?***

- Bəli, əlbəttə ki, bu, mümkündür, çünki bu növ görüşlər əvvəllər də olmuşdur. Əgər belə bir görüş olsa, bu, gündəliyin nədən ibarət olduğundan asılı olacaqdır. Əfsuslar olsun ki, Ermənistanın bu hökuməti ilə münaqişənin sülh yolu üzrə nizamlanması perspektivləri çox uzaqdır. Çünki Ermənistan rəhbərliyi tərəfindən verilmiş çox səmərəsiz və təhrikedici bəyanatlar, edilmiş hərəkətlər, əslində, danışıqları mənasız etmişdir. Çünki danışıqlar masasında əsas mövzu həmişə BMT Təhlükəsizlik Şurasının qətnamələrinə müvafiq olaraq Azərbaycanın işğal olunmuş ərazilərinin boşaldılması idi. Ermənistanın baş naziri “Qarabağ Ermənistandır” bəyan edəndə, Azərbaycanın qondarma “Dağlıq Qarabağ hökuməti” ilə danışıqlar aparmalı olduğunu deyəndə, dinc Gəncə şəhərinə ballistik raket zərbəsi vurmaq əmri verəndə və Azərbaycanın digər şəhərlərinə gündəlik olaraq hücum edəndə, danışıqları aparmaq üçün o qədər də imkan qalmır. Buna görə də biz Ermənistan hökumətinə sübut etməli idik ki, artıq onlar bu cəzasız təcavüzkar addımları ata bilməzlər. Biz onların cəzasını yerində veririk, biz ərazilərimizi azad edirik, demək olar ki, hər gün mən Ermənistanın işğalından azad olunmuş yeni şəhər və kəndləri elan edirəm. Ermənistan döyüş meydanında çox acı məğlubiyyətlə üzləşir. Buna görə də, əlbəttə ki, onlar daha məntiqli davranmalıdırlar və birmənalı olaraq ərazilərin işğaldan azad edilməsi baş verir. Biz buna sülh danışıqları vasitəsilə nail olmaq istəyirdik. Lakin Ermənistanın qeyri-konstruktiv mövqeyi və təhrikedici addımlarına görə bu, mümkün olmamışdır. Buna görə biz indi döyüş meydanında ərazilərimizi azad edirik.

***- Siz ikinci atəşkəsin artıq uğursuz olduğunu, yaxud bitdiyini və döyüşün davam etdiyini deyərdiniz?***

- Atəşkəsə nail olmaq üçün ikinci cəhd ona görə uğursuz oldu ki, atəşkəs qüvvəyə mindikdən 2 dəqiqə sonra onlar atəşkəsi pozdular, onlar yenə də bizim dinc şəhərlərimizə hücum etdilər. Bu səhər saat 6-dan 8-ə qədər onlar dinc əhalinin yaşadığı və ən çox ziyan görən Tərtər şəhərinə 100-dən çox raket atıblar. Onlar bizim hərbi mövqelərimizə hücum edirlər. Onlar artıq azad edilmiş əraziləri yenidən geri götürmək istəyirdilər. Bildiyiniz kimi, birinci atəşkəs cəhdindən sonra 24 saatdan az müddətdə onlar Ermənistan ərazisindən ballistik raketlə Azərbaycanın ikinci ən böyük şəhəri Gəncəyə hücum etdilər. Bu da hərbi cinayətdir və Ermənistan hökuməti buna görə məsuliyyət daşıyacaq. Beləliklə, onlar atəşkəsi pozublar.

Mən həmişə demişəm ki, atəşkəsə birtərəfli qaydada nail olmaq mümkün deyil. Əgər bizə hücum olunursa, biz nəinki özümüzü müdafiə etməliyik, eyni zamanda, əks-hücuma da keçməliyik. Sizə deyə bilərəm ki, onlar ikinci dəfə atəşkəsi pozandan sonra biz Zəngilan şəhərini və bir çox kəndləri azad etdik. Beləliklə döyüş meydanında nə qədər çox vaxt keçirsə, biz bir o qədər də əraziləri azad edirik. Ona görə Ermənistan hökuməti öz davranışı haqqında ciddi düşünməlidir və əgər atəşkəsin səmərəli olmasını istəyirsə, birincisi, atəşkəsi pozmamaq, ikincisi, artıq işğaldan azad edilmiş əraziləri geri götürməyə cəhd etməmək və işğal olunmuş Azərbaycan ərazilərinin boşaldılması üçün üzərinə ciddi öhdəlik götürməlidir.

***- Hələ ki, atəşkəs əsirlərin və cəsədlərin mübadiləsi də daxil olmaqla humanitar məqsədlər üçün elan edilmişdir. Sizcə bu atəşkəsin, - ola bilsin başqa atəşkəs də olacaqdır, - əsirlərin mübadiləsindən sonra bitəcəyi deməkdir? Yəni, bu, qüvvədə olacaq əsaslı atəşkəs, yoxsa, müvəqqəti atəşkəs olacaqdır?***

- Bəli, atəşkəs humanitar zəmində elan olunmuşdur. Bildiyiniz kimi, Moskva bəyannaməsində substantiv danışıqlara və danışıqlar formatının dəyişməz olaraq qaldığına da istinad var idi. Bu isə Ermənistan tərəfindən qondarma “Dağlıq Qarabağ hökumətini” danışıqlara cəlb etmək cəhdlərinin artıq olmayacağı deməkdir. Bu, bizim tərəfimizdən və Minsk qrupu tərəfindən rədd edilmişdir. Buna görə, əlbəttə, əgər Ermənistan danışıqlara sadiq qalarsa və əraziləri boşaltmaq üçün üzərinə ciddi öhdəlik götürərsə, - hansını ki, onlar hələ də elan etməyiblər, - bu halda bu atəşkəs uzunmüddətli olacaqdır. Çünki biz bu problemi sülh yolu ilə həll etmək istəyirik. Lakin, əgər onlar resurslarını səfərbər etmək, əlavə əcnəbi hərbi yardım almaq və bizə qarşı yeni hücuma keçmək üçün bu atəşkəsdən istifadə etməyə cəhd göstərəcəklərsə, əlbəttə, bu atəşkəs uzun müddət davam etməyəcəkdir. Bu, onlardan asılıdır.

***- Beləliklə, danışıqlar masasına oturmaq üçün hər hansı danışıqları aparmadan öncə əvvəlcədən Ermənistandan ən azından yeddi rayonun bəzilərini boşaltmağa razılaşmağı tələb edəcəksiniz?***

- Onlar bu əraziləri boşaldacağına dair üzərlərinə ciddi öhdəlik götürməlidirlər. Çünki bu, Minsk qrupunun vasitəçiliyi ilə iki ölkə arasında razılaşdırılmış əsas prinsiplərin bir hissəsidir. Əsas prinsiplərdə deyilir ki, işğal olunmuş ərazilər Azərbaycana qaytarılmalıdır, bizim qaçqın və məcburi köçkünlərimiz işğal olunmuş bütün ərazilərə qayıtmalıdırlar, o cümlədən Dağlıq Qarabağın ərazisinə, o cümlədən qədim Azərbaycan şəhəri olan Şuşanın ərazisinə.

**Ardı Səh. 3**

## Prezident İlham Əliyev: Ağbənd qəsəbəsinin azad edilməsi ilə Azərbaycan və İran dövlət sərhədinin tam nəzarətə götürülməsi təmin olundu



Ağbənd qəsəbəsinin azad edilməsi ilə Azərbaycan və İran İslam Respublikası dövlət sərhədinin tam nəzarətə götürülməsi təmin olundu. Bu münasibətlə Azərbaycan və İran xalqını təbrik edirəm. Eşq olsun müzəffər Azərbaycan ordusuna!

AZƏRTAC xəbər verir ki, bu barədə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev özünün rəsmi ”Twitter” səhifəsində bildirib.

# İlham Əliyev: "Azərbaycan özü döyüşür. Bizim heç bir xarici döyüşçüyə ehtiyacımız yoxdur"

*Prezident İlham Əliyev Yaponiyanın "Nikkei" qəzetinə müsahibə verib*

**İlham Əliyev: "Ermənistanın bu hökuməti ilə münaqişənin sülh yolu üzrə nizamlanması perspektivləri çox uzaqdır"**

Əvvəli Səh. 2

Buna görə Ermənistan hökuməti bu prinsiplərə sadiq olduğunu, bu əraziləri boşaldacağını açıq şəkildə bəyan etməlidir və bundan sonra əlbəttə ki, danışıqlar başlayacaqdır. Biz indi birinci olaraq ərazilərin boşaldılması və sonra danışıqların başlanılması ilə bağlı ilkin şərti irəli sürmürük.

Biz hazırda Ermənistan tərəfindən, bu zorakılığa və dinc əhaliyə qarşı hərbi cinayətlərin törədilməsinə görə məsul olan şəxsdən, şəxsən baş nazirdən tələb edirik ki, o, Ermənistanın işğal olunmuş əraziləri boşaldacağını desin. Bundan sonra əlbəttə ki, münaqişənin nizamlanması döyüş meydanından danışıqlar masasına keçəcəkdir.

***- Ermənistan desə ki, onlar ilkin olaraq beş rayonu boşaltmağa hazırdır, Siz danışıqlara getməyə hazır olarsınızmı?***

- Azərbaycanın bütün rayonları boşaldılmalıdır. Bütün. Əlbəttə ki, biz vaxt çərçivəsindən danışa bilərik və əsas prinsiplərdə vaxt çərçivəsi ilə bağlı müəyyən fikirlər var idi. Hansı mərhələdə rayonların birinci, hansı mərhələdə rayonların ikinci hissəsi boşaldılacaq. Beləliklə bunu müzakirə etmək olar. Lakin aydındır ki, işğal olunmuş bütün ərazilər qaytarılmalıdır.

***- Bu, əvvəlcədən elan olunmalıdır.***

- Bütün azərbaycanlılar öz qədim torpaqlarına qayıtmalıdır.

***- Rusiyanın müşahidəçi qruplarının göndərilməsinə dair təklifinə və ya beynəlxalq müşahidəçilərlə bağlı nə deyərdiniz?***

- Beynəlxalq müşahidəçilər və ya sülhməramlı qüvvələr əsas prinsiplərin bir hissəsidir. Lakin bu, sonuncu hissəsidir, ünvanlanmalı olan ən son məsələlərdən biridir və əlbəttə ki, hər iki tərəf, - Azərbaycan və Ermənistan bu beynəlxalq müşahidəçilərin və ya sülhməramlıların kim olacağına razılaşmalıdır. Buna görə, biz danışıqlar çərçivəsində bu məsələni ciddi müzakirə etməmişik. Hesab edirəm ki, Minsk qrupunun həmsədrləri olan üç ölkə, əlbəttə, öz adından bu müşahidəçilərin tərkibi, sayı, onların nə zaman və hara göndəriləcəyi ilə bağlı təkliflərini verəcəklər.

Çünki bu, həm də texniki nöqteyi-nəzərdən vacibdir. Çünki indi döyüş əməliyyatlarının aktiv fazasıdır. Bu müşahidəçilər və ya sülhməramlılar harada yerləşdiriləcək? Onların həyatı risk altında ola bilər. Onların mandatı necə olacaq? Onlara mandatı kim verəcək? Aydındır ki, biz bu barədə danışanda, Azərbaycan ərazisi barədə danışırıq. Bu, Ermənistanın ərazisi deyil. Ona görə də, əlbəttə ki, bununla bağlı həlledici sözü biz deməliyik. Bu səbəbdən, sözsüz ki, bütün bu məsələlərlə məşğul olmaq lazımdır. Prinsipcə, biz bunu inkar etmirik. Lakin sözsüz ki, vaxtı gələndə biz öz şərtlərimizi irəli sürəcəyik.

***- Minsk qrupundan söz düşmüşkən, Türkiyə Minsk qrupunu tənqid edərək ona ağılsız deyir. Siz bununla razılaşardınız?***

- Mən bu yaxınlarda demişdim ki, Minsk qrupu 30 il ərzində heç bir nəticə əldə etmədi. Eyni zamanda, mən dedim ki, biz Minsk qrupunun vasitəçiliyi ilə keçmiş Ermənistan hökumətləri ilə irəliləyişə nail ola bilmişdik. Böyük olmasa da, hər halda irəliləyiş idi. Lakin əgər 30 il ərzində bir ölkələr qrupu nəticə əldə edə bilmirsə, bu, özü hər şeyi göstərir. Həmçinin Minsk qrupunun həmsədrləri BMT Təhlükəsizlik Şurasının daimi üzvləridir. Bu ölkələrin iştirakı və bu ölkələrin səsverməsi ilə BMT Təhlükəsizlik Şurası Ermənistan qoşunlarının Azərbaycan torpaqlarından tam və qeyd-şərtsiz çıxarılmasını tələb edən 4 qətnamə qəbul edib. Bu qətnamələrə niyə əməl edilmədiyi sual olunur. Çünki Minsk qrupunun həmsədrləri və daimi üzvlər eyni ölkələrdir. Beləliklə, bu, açıq sualdır.

***- Siz Minsk qrupunun həmsədrləri arasında Rusiyanın vasitəçi kimi, aparıcı vasitəçi kimi rolu barədə nə deyə bilərsiniz? Siz deyə bilərsiniz ki, Rusiya ədalətli olub?***

- Bilirsiniz, Minsk qrupunun üç həmsədrinin eyni hüquqları və eyni mandatı var. Odur ki, mənim bildiyimə görə bu ölkələr arasından lider seçilməyib. Onların hamısı bərabərdir və biz onlara vasitəçi kimi baxırıq. Əgər hər hansı bir ölkə vasitəçi rolunu üzərinə götürürsə, bu ölkə neytral olmalıdır. Əgər o, neytral deyilsə, vasitəçi ola bilməz. Neytrallıq səviyyəsi, əlbəttə ki, münasib zamanda ünvanlanacaq başqa bir məsələdir. Lakin düşünürəm ki, Minsk qrupunun həmsədrləri zorakılığı dayandırmaq və 28 il ərzində yerinə yetirilməyən mandatı yerinə yetirmək üçün xüsusilə indi, Ermənistanın döyüş meydanında demək olar ki, məğlub olduğu bir vaxtda öz rollarını oynayacaqlar.

***- Siz Türkiyənin Qafqazdakı məsələlərlə bağlı daha çox söz sahibi və bu danışıqlar prosesində daha fəal olmağını istəyirsinizmi?***

- Bu, sözsüz ki, Türkiyənin siyasi gündəliyindən asılıdır. Mən Türkiyənin adından danışa bilmərəm. Demək istədiyim odur ki, əlbəttə, biz Türkiyənin regional məsələlərdə fəal iştirakına hər zaman güclü dəstək veririk. Faktiki olaraq, bu iştirak açıq-aşkardır. Türkiyə indi təkcə bizim regionumuzda deyil, Qafqazda deyil, daha geniş coğrafiyada və dünyada mühüm rol oynayır. Bu, reallıqdır və bu, bizim üçün çox yaxşı reallıqdır. Çünki Türkiyə bizim üçün qardaş ölkədir, ən yaxın müttəfiqimiz və dostumuzdur. Əlbəttə ki, Türkiyə de-fakto, həm də Minsk qrupunun üzvü olaraq hüquqi baxımdan artıq cəlb olunub. Mən bir dəfə müsahibələrimdən birində demişdim ki, Türkiyə hətta həmsədr də ola bilərdi. Əgər biz həmsədrləri bu gün seçsəydik, Azərbaycan sözsüz ki, Türkiyənin namizədliyini dəstəkləyərdi və əminəm, Türkiyə həmsədr olmaqda israr edərdi. Əfsuslar olsun ki, 1992-ci ildə bu, baş vermədi. Beləliklə, bu, hüquqi tərəfdir. Praktiki tərəfdən, bildiyiniz kimi, Türkiyə və Rusiyanın prezidentləri, Xarici İşlər nazirləri, Müdafiə nazirləri görüşüblər, söhbət aparıblar, bu məsələni müzakirə ediblər. Ona görə də, Ermənistanın dediyi kimi, əgər kimsə deyirsə ki, Türkiyə orada olmamalıdır, bu, Ermənistanın işi deyil, Türkiyə artıq oradadır və cəlb olunmalıdır, çünki o, sabitlik gətirəcək. Həmçinin düşünürəm ki, Türkiyə Qafqazın 3 ölkəsi ilə sərhədi olan yeganə ölkədir. Başqa heç bir ölkənin onların hər üçü ilə sərhədi yoxdur. Əlbəttə ki, Türkiyə fəal şəkildə cəlb olunmalıdır, Türkiyə cəlb olunub və biz bunu möhkəm dəstəkləyirik.

***- Beynəlxalq hüquq nöqteyi-nəzərindən Qarabağ Azərbaycanın ərazisidir. Lakin, eyni zamanda, orada çox sayda erməni əhalisi var. Siz zəmanət verə bilərsinizmi ki, Azərbaycan nəzarəti geri qaytarandan sonra erməni əhali orada təhlükəsiz şəraitdə və bərabər hüquqlarla yaşaya biləcək?***

- Bəli, sözsüz ki. Mən münaqişənin bu aktiv fazası ərzində artıq dəfələrlə bununla bağlı bəyanatlar vermişəm ki, Dağlıq Qarabağda yaşayan həmin ermənilər bizim vətəndaşlarımızdır. Onların təhlükəsizliyi, hüquqları Azərbaycanın digər insanlarının hüquqları kimi tam təmin olunacaq. Sizə deyə bilərəm ki, hazırda azərbaycanlıların olmadığı Ermənistandan fərqli olaraq, bu gün Azərbaycanda minlərlə erməni əsilli adam var və Ermənistan əhalisinin 99 faizi etnik ermənilərdir. Beləliklə, orada heç bir milli azlıq yaşaya və sağ qala bilməz. Onlar bugünkü Ermənistan Respublikasının ərazisində bir zamanlar yaşayan bütün millətləri qovublar. Ən böyük icma azərbaycanlılar idi. XX əsrin əvvəlində İrəvan şəhərinin əhalisinin 70 faizi azərbaycanlılar idi. Ermənilər bizim bütün tarixi, dini abidələrimizi dağıdıblar. Onlar təkcə İrəvanda deyil, bugünkü Ermənistanın bir çox başqa regionlarında da Azərbaycan mədəniyyətinin izlərini siliblər. Yeri gəlmişkən, 1918-ci il mayın 28-də yaradılmış Azərbaycan Xalq Cümhuriyyəti, əfsuslar olsun ki, mayın 29-da, - bu, haqq qazandırılması mümkün olmayan böyük bir səhv idi, - İrəvanı paytaxt kimi Ermənistana verməyi qərara aldı. Beləliklə, onlar bizim bütün dini və mədəni irsimizi dağıdıblar. Onlar bizim məscidlərimizi, abidələrimizi dağıdıblar. Burada - Bakının mərkəzində isə çox sayda erməni kitablarının olduğu erməni kilsəsi var. Bu gün Bakıda və Azərbaycanın başqa yerlərində çox sayda, minlərlə erməni yaşayır. Sizin orada yaşayan çox sayda erməni ilə bağlı dediyiniz məqama gəlincə, bizdə olan məlumata görə, keçmiş Dağlıq Qarabağ Muxtar Vilayəti də daxil olmaqla, işğal edilmiş ərazinin real əhalisi təqribən 65 min nəfərdir. Bu, böyük icma deyil. Lakin müharibədən əvvəl, 1990-cı illərin əvvəlində Dağlıq Qarabağda, əsasən Şuşada, həmçinin Xankəndidə, ermənilərin törətdiyi soyqırımının qurbanı olan Xocalı şəhərində və bir çox başqa şəhərlərdə 40 mindən çox azərbaycanlı yaşayırdı. Ermənilər bizə qarşı etnik təmizləmə həyata keçiriblər. Biz bunu heç vaxt etməmişik. Hətta bu toqquşmalar zamanı biz eyni yolla cavab verməmişik. Biz nə Dağlıq Qarabağ ərazisinə, nə də Ermənistan ərazisinə ballistik raketlərlə hücum etməmişik. Mən demişdim ki, biz qisas alacağıq, lakin biz qisası döyüş meydanında alacağıq. Beləliklə, Dağlıq Qarabağdakı ermənilər tam əmin ola bilərlər ki, Azərbaycan vətəndaşları olaraq onların təhlükəsizliyi təmin ediləcək. Dağlıq Qarabağdakı cinayətkar xunta kənarlaşdırılandan sonra onlar daha yaxşı yaşayacaqlar. Onlar ləyaqətlə yaşayacaqlar, sülh şəraitində yaşayacaqlar və ölkəmizdəki istənilən başqa insanlar üçün etdiyimiz kimi, biz onlar üçün də bütün sosial və iqtisadi imtiyazları təmin edəcəyik.

***- Dağlıq Qarabağı geri qaytarandan sonra Siz Madrid prinsiplərində qeyd olunduğu kimi, onların öz müqəddəratını təyinetmə hüququna hörmət edəcəksinizmi və referenduma razılıq verəcəksinizmi?***

- Xeyr, əlbəttə ki, xeyr. Dağlıq Qarabağda heç bir referendum olmayacaq. Biz bununla heç vaxt razılaşmayacağıq. Biz danışıqlar zamanı buna razılıq vermədik və indi ərazinin böyük bir hissəsini geri aldığımız bir vaxtda bundan söhbət gedə bilməz. Öz müqəddəratını təyinetməyə gəldikdə, ermənilər artıq öz müqəddəratlarını təyin ediblər. Onların müstəqil Ermənistan dövləti var. Təsəvvür edin, əgər ermənilər yaşadıqları hər yerdə öz müqəddəratlarını təyin etsələr nə baş verər, dünyada neçə kiçik Ermənistan olar. Bu, əks təsir verən yanaşmadır. Öz müqəddəratını təyinetmə beynəlxalq hüququn mühüm amilidir. Lakin o, Azərbaycanın ərazi bütövlüyünü pozmamalıdır. Öz müqəddəratını təyinetmənin müxtəlif növləri var, icmaların müxtəlif növləri var. Məsələn, mədəni muxtariyyət ola bilər. Biz Avropanın inkişaf etmiş ölkələrində bu nümunələri görürük ki, insanların öz bələdiyyələrində, öz icmalarında müəyyən hüquqları var. Azərbaycanın istənilən yerində olduğu kimi, əlbəttə, Azərbaycanda yaşayan ermənilərin də bu formada təmasları ola bilər. Lakin biz heç vaxt Azərbaycan ərazisində ikinci Ermənistan dövlətinin yaradılmasına icazə verməyəcəyik. Bundan söhbət gedə bilməz. Bir sözlə, referendum olmayacaq, heç vaxt.

***- Döyüş meydanından danışarkən, Ermənistanın Liviyada, Suriyada yaşayan erməniləri cəlb etdiyinə dair məlumatlar var. Eyni zamanda, QHT, dəqiq desək, Suriya İnsan Haqlarının Müşahidəsi Qrupu iddia edir ki, Suriyadan çox sayda etnik türkmən döyüşçü hazırda Sizin qüvvələrinizlə birlikdə döyüş meydanındadır. Bu, doğrudur, ya yox?***

- Xeyr, bu, doğru deyil. İlk növbədə, mən bildirmək istərdim ki, Ermənistanın Yaxın Şərqdən muzdluları və döyüşçüləri cəlb etməsi faktı sirr deyil.

Ardı Səh. 4

# İlham Əliyev: "Azərbaycan özü döyüşür. Bizim heç bir xarici döyüşçüyə ehtiyacımız yoxdur"

## *Prezident İlham Əliyev Yaponiyanın "Nikkei" qəzetinə müsahibə verib*

**Əvvəli Səh. 3**

Hətta Ermənistanın baş naziri bunu etiraf edib. Lakin o bildirib ki, onlar köklü ermənilərdir. Birincisi, heç kim bilmir onlar köklü ermənilərdir, ya yox. Bizdə məlumat var ki, başqa millətlərin nümayəndələri hazırda Ermənistan tərəfdən döyüşür. İkincisi, əgər insan etnik ermənidirsə və başqa ölkənin vətəndaşıdırsa, bu, o demək deyil ki, o, muzdlu deyil. Döyüş meydanında zərərsizləşdirilənlər arasında Livan pasportu olan, Kanada pasportu olan insanlar var. Bizdə Fransa, ABŞ vətəndaşlarının, erməni əsilli, lakin bu ölkələrin vətəndaşları olan şəxslərin, keçmiş sovet ölkələrinin vətəndaşlarının, Yaxın Şərq ölkələrinin vətəndaşları ilə birlikdə bizə qarşı döyüşməsinə dair dəlillər var. Ermənistan birinci Qarabağ müharibəsində muzdlulardan istifadə edirdi. Bu, sirr deyil. Onlardan bəziləri Azərbaycan tərəfindən zərərsizləşdirilib və ermənilər onların şərəfinə böyük abidələr ucaldıblar, beynəlxalq terrorçuların şərəfinə abidələr. Bu, Ermənistanın terrorçu dövlət olduğunu göstərir.

Azərbaycana gəlincə, birincisi, Suriya İnsan Haqlarının Müşahidəsi Qrupu adlandırılan QHT etibarlı təşkilat deyil. Biz onların Suriyadakı müharibə ilə bağlı yaydığı çox sayda feyk xəbərləri bilirik. Bu, siyasi motivasiyalı olan "QHT"yə etibar, etimad yoxdur. Birincisi, biz kimin maliyyələşdirdiyini yoxlamalı, sonra bu şayiələrin arxasında kimin durduğunu öyrənməliyik. İkincisi, bizə heç bir ölkə tərəfindən bir dəlil belə təqdim olunmayıb. Yalnız şayiələr, yalnız əsassız bəyanatlar. Mən sübut tələb etdim. Dedim yaxşı, biz artıq 20 gündən çoxdur ki, münaqişənin aktiv fazasındayıq, sübutlar haradadır? Bizə dəlil təqdim edin. Heç bir sübut yoxdur. Ona görə də, bu şayiələrə son qoyulmalıdır. Azərbaycan özü döyüşür. Bizim heç bir xarici döyüşçüyə ehtiyacımız yoxdur. Bizim kifayət qədər insanlarımız, nizami ordumuzda kifayət qədər əsgər və zabitlərimiz var. Əhalimizin sayı 10 milyon nəfərdir. Əgər bizim əlavə döyüşçüyə ehtiyacımız olsa, səfərbərlik elan edərik, cəlb edərik. Beləliklə, buna ehtiyac yoxdur. Bu, tamamilə yanlış məlumatdır.

***- Sizin dəfələrlə dediyiniz kimi, heç bir mücahid, hətta heç bir türkmən yoxdur?***

- Xeyr, başqa ölkələrdən gəlmiş Azərbaycan əsilli insanlar ola bilər. Biz bunu istisna etmirik. Çünki bizdə çox sayda könüllülər var. İnsanlar könüllü şəkildə öz ölkələrini müdafiə etmək istəyə bilər. Biz istisna edə bilmərik ki, başqa ölkələrdən Azərbaycan əsilli insanlar gəlir. Lakin bu, təqdim olunduğu kimi deyil ki, Azərbaycan döyüşmək üçün terrorçuları dəvət edib. Bu, yanlış məlumatdır.

***- Siz Azərbaycan əsilli həmin könüllülərdən xəbərdarsınız?***

- Mən dedim ki, istisna etmirəm. Ola bilər. Lakin biz xaricdə yaşayan azərbaycanlılardan gəlib tarixi Vətəni uğrunda döyüşmək üçün çox sayda müraciət, çox sayda məktub alırıq. Lakin bizim mövqeyimiz belədir ki, buna ehtiyacımız yoxdur. Döyüş meydanında kifayət qədər insanımız var.

***- Yaponiya şirkətləri Azərbaycanın neft kəməri layihələrinə qoşulub. Onlar burada investordur. Sizin kəmərlərin təhlükəsizliyi ilə bağlı narahatlığınız varmı? Bu yaxınlarda, bu il ərzində açılması planlaşdırılan TAP kəmərinin təxirə salınması riski varmı?***

- Xeyr, TAP kəməri ilə bağlı hər şey qrafikə uyğun gedir. Bu, artıq edilib. TAP-ın rəsmi açılışı ola bilsin ki, ayların deyil, əlavə bir neçə həftənin işidir. Kəmərdə hər şey hazırdır. Bakıdan Avropaya tarixi kəmər tamamlanıb. Bizim digər kəmərlərimizə, xüsusilə neft-qaz kəmərlərinə gəlincə, Azərbaycan ərazisində bütün bu illər ərzində, Bakı-Tbilisi-Ceyhanın istismara verildiyi 2006-cı ildən bu yana bizdə heç bir hadisə baş verməyib. Bizim kəmərlərimiz bizim ərazimizdə lazımi qaydada qorunur. Lakin, əlbəttə, biz Ermənistanın rəsmi nümayəndələrindən hədələr eşitmişik ki, onlar bizim kəmərlərimizə hücum edəcəklər, neft-qaz nəqli üçün mühüm olan Səngəçal terminalına hücum edəcəklər. Lakin bu da onların terrorçu xislətinin bir hissəsidir. Çünki onlar açıq şəkildə bəyan edirlər ki, mülki infrastruktura hücum edəcəklər. Əlbəttə ki, əgər onlar bunu etsə, peşman olacaqlar. Çünki bizim tərəfimizdən və həmçinin enerji təhlükəsizliyinin bir hissəsini Azərbaycandan təmin edən ölkələr tərəfindən sərt şəkildə cəzalandırılacaqlar. Həmin ölkələrin reaksiyası necə olacaq? Bu kəmərlərə milyardlarla dollar investisiya yatırılıb. Beynəlxalq banklar, Dünya Bankı, Avropa Yenidənqurma və İnkişaf Bankı, Asiya İnkişaf Bankı, Avropa İnvestisiya Bankı və başqaları kimi bütün aparıcı beynəlxalq banklar investisiya yatırıb. Ona görə də, Ermənistan rəhbərliyi bu cür variant barədə yaxşı düşünməlidir. Əlbəttə, qeyd etdiyim kimi, Azərbaycan özü onları sərt şəkildə cəzalandıracaq və mən düşünmürəm ki, onlar bunu, daha bir müharibə cinayətini etməyə cürət göstərəcəklər.

***- Sizinlə görüşmək imkanımız çox nadir hallarda olduğundan, icazə verin, ümumilikdə, ölkənin gələcəyi ilə bağlı bir neçə sual verim.***

- Bəli, buyurun.

***- Azərbaycan dünyada sənaye üsulu ilə neft istehsal edən ilk ölkədir.***

- Bəli, doğrudur.

***- Sizcə, ölkə postneft dövrünə necə keçəcək? Yaponiya şirkətlərinin bunda iştirakına dair Sizin hansısa gözləntiləriniz varmı?***

- Bəli, əlbəttə ki, bizim iqtisadiyyatımızın şaxələndirilməsi ilə bağlı gündəliyimiz var və bu proses uğurla davam edir. Hətta baxmayaraq ki, bu il ümumi daxili məhsulumuz aşağı düşür - çox ciddi deyil, indiyədək geriləmə 4 faizdən aşağı olub. Bəzi başqa ölkələrlə müqayisədə bu, pis nəticə deyil. Lakin qeyri-neft sənayesinə gəldikdə, bizdə artım var. Bu, onu göstərir ki, bizim şaxələndirmə proqramımız çox uğurla icra olunur. Sənaye, biznes imkanları, turizm, innovasiya sektoru və kənd təsərrüfatı, əlbəttə ki, pandemiyadan əvvəl sürətlə inkişaf edirdi. Əlbəttə ki, əsas məsələyə gəlincə, biz indi Azərbaycanın öz ərazilərini azad etdiyini görürük. Biz, ilk olaraq, on minlərlə hektar torpağı su ilə təchiz edəcək çox mühüm su anbarını azad etdik. Ermənistan faktiki olaraq bizə qarşı ekoloji terror törədib. Onlar Tərtər çayının qabağını bağlayırdılar və beləliklə, yüz minlərlə hektar torpaq su ilə təchiz olunmurdu. Onlar bunu yayda, insanların ehtiyacı olanda bağlayırdılar və qışda açırdılar, bu isə daşqına səbəb olurdu. Beləliklə, Ermənistanın terrorçu xisləti hər addımdadır. Biz əraziləri geri qaytarandan sonra, - bu, müxtəlif məhsullar becərmək, mal-qara saxlamaq üçün çox münbit torpaqlardır, - əlbəttə ki, bu, kənd təsərrüfatımızın inkişafına yeni təkan verəcək. Biz ərazilərin azad edilməsi ilə əlaqədar kənd təsərrüfatımızın gələcək inkişafını artıq planlaşdırmağa başlamışıq. Əlbəttə, düşünürük ki, insan kapitalına investisiyalar bizə inkişaf üçün yaxşı imkanlar yaradacaq. Çünki bir gün neft və qaz tükənəcək, baxmayaraq ki, bizim ehtiyatlarımız çox böyükdür. Biz böyük həcmdə təbii qaz ixrac etməyə yenicə başlamışıq və neft istehsalı sahəsi qarşıdakı onilliklərdə, ümumilikdə, sabit olacaq. Lakin, əlbəttə ki, qeyri-neft sektoru prioritetdir.

Yaponiya şirkətlərinə gəlincə, onlar burada enerji sahəsində çox fəaldırlar. Yaponiya banklarından alınan kreditlərlə biz Bakıda iki böyük elektrik stansiyası tikmişik. Onların gücü 800 meqavata yaxındır. Beləliklə, bu elektrik stansiyaları istehlakımızın və ixracımızın əhəmiyyətli hissəsini təmin edir. Yeri gəlmişkən, biz həm də elektrik enerjisini ixrac edirik. Biz Yaponiya şirkətlərini hazırda prioritetlərdən biri olan bərpaedilən enerji sahəsində görmək istəyirik. Biz artıq bəzi investorlarla ilkin razılaşmalar imzalamışıq. Beləliklə, əminik ki, çox ümidverici olan və xüsusilə Abşeron yarımadasında günəş və çoxlu külək sayəsində potensialı olan bu sahədə və bir çox başqa sahələrdə əməkdaşlıq olacaq. Bu gün Yaponiya şirkətləri ilə avadanlıq, maşınqayırma, texnologiya, eləcə də kənd təsərrüfatı sahələrində əməkdaşlığımız var. Biz Yaponiya ilə Azərbaycan arasındakı iqtisadi əməkdaşlığın səviyyəsindən məmnunuq.

***- Siyasi islahatlar barədə nə deyə bilərsiniz? Əsasən Qərb ölkələri tərəfindən tənqidlər var ki, Siz özünüz atanızdan sonra hakimiyyətə gəlmisiniz, indi xanımınız Birinci vitse-prezidentdir. Siz demokratiyanı təşviq etməyə, müxalifətə hakimiyyətə yol açmağa hazırsınızmı?***

- Düşünürəm ki, ölkədə demokratik inkişaf müsbət məcrada gedir. Azərbaycanda bütün əsas azadlıqlar təmin olunub, siyasi fəaliyyət azadlığı, media azadlığı, ifadə azadlığı, sərbəst toplaşma azadlığı, dini etiqad azadlığı. Bununla bağlı məhdudiyyət yoxdur. Yeri gəlmişkən, bizdə internet azaddır. Bizi tənqid etməyə çalışanlar şayiələr yaymaqdan, Azərbaycanın guya demokratiya sahəsindəki çatışmazlıqlarını siyasi məqsədlər üçün, siyasi təzyiq məqsədilə istifadə etməkdənsə, məzmuna baxmalıdırlar. İndi mən yeni siyasi islahatlar proqramını təqdim etmişəm, o, bütün siyasi partiyaların mütləq əksəriyyəti tərəfindən dəstəklənib. Yeri gəlmişkən, bu, toqquşmalardan əvvəl olub. İndi, əlbəttə ki, siyasi partiyaların mütləq əksəriyyəti işğal olunmuş ərazilərin qaytarılması ilə bağlı mənim yürütdüyüm siyasəti tam dəstəkləyir. Cəmi iki partiya bu prosesdə iştirak etmir. Cəmi iki partiya Azərbaycanın milli maraqlarının əleyhinə çıxış edir. Bunlar Xalq Cəbhəsi partiyası və Müsavat partiyasıdır. Yeri gəlmişkən, bu iki partiya mənim siyasi dialoqla bağlı təklifimi qəbul etmədi. Mən bu təklifi bir neçə ay bundan əvvəl etmişdim. Mən demişdim ki, bizim normal dialoqa ehtiyacımız var, hökumətlə müxalifət arasında, aparıcı partiya ilə digər partiyalar arasında normal, sivil münasibətlərə ehtiyacımız var. İndi zənnimcə, 50 və ya ondan da çox partiya bunu dəstəklədi. Biz siyasi dialoqun çox aktiv fazasındayıq.

Yalnız iki partiya, birbaşa maliyyələşdirməsi kənardan gələn, həmişə Azərbaycanın milli maraqlarına qarşı çıxan, Ermənistanın ərazilərimizi işğal etdiyi zaman - 1992-1993-cü illərdə hakimiyyətdə olduqları üçün ərazilərimizin itirilməsinə görə məsuliyyət daşıyan bu iki partiya, Xalq Cəbhəsi və Müsavat. Ərazilərin itirilməsinə görə məsuliyyət daşıyan o insanlar bu gün həmin partiyaların demək olar ki, 30 ildir rəhbərləridir. Heç kim demokratiyadan danışmır, heç kim onların bu vəzifədə demək olar ki, 30 il ərzində necə qaldıqları barədə danışmır. Buna görə bizi tənqid etmək istəyənlər yaxşı olardı ki, güzgüyə baxsınlar. Bizim gözümüzün önündə, beynəlxalq ictimaiyyətin gözü önündə dırnaqarası demokratiyalarda nümayişlərin necə dağıdıldığını, insanların mitinqlərdə necə öldürüldüyünü, yaralandığını, xəsarət aldıqlarını görürük. Biz bunları hər həftə görürük. Etirazçıları dağıtmaq üçün polisin itlərdən və atlardan necə istifadə etməsini görürük. Siz bunu Azərbaycanda görməyəcəksiniz, heç vaxt. Buna görə bizi tənqid edənlər, yaxşı olardı ki, öz işləri ilə məşğul olsunlar. O ki qaldı, sizin mənim atamın davamçısı kimi dediklərinizə, bəli, bu, həqiqətdir. Lakin mən atamın xələfi olmamışdan əvvəl uzun illər idi, 1995-ci ildən 2003-cü ilə kimi parlamentin üzvü idim. 1997-ci ildən bəri mən Milli Olimpiya Komitəsinin prezidentiyəm. Mən aparıcı siyasi partiya olan Yeni Azərbaycan Partiyasının sədr müavini və sədrin birinci müavini olmuşdum və Baş Nazir olmuşdum. Beləliklə, mənim siyasi karyeram beynəlxalq müşahidəçilərə məlumdur və əlbəttə ki, onlar bunun onların təqdim etmək istədiyi kimi olmadığını bilirlər.

**"Onların "cəsur ordusu" haqqında bütün mifləri, sadəcə, bir növ feyk idi. Onların ordusu qaçır. Biz onları məğlub edirik. Biz onlara qalib gəlirik və onlar bizim torpaqlardan çıxana kimi bunu etməyə davam edəcəyik"**

**Ardı Səh. 5**

# İlham Əliyev: "Azərbaycan özü döyüşür. Bizim heç bir xarici döyüşçüyə ehtiyacımız yoxdur"

*Prezident İlham Əliyev Yaponiyanın "Nikkei" qəzetinə müsahibə verib*

**Əvvəli Səh. 4**

Xələf olmaq haqqında danışdıqda, niyə heç kim Buş ailəsi, onların bir-birinin necə davamçısı olması haqqında danışmır? Niyə heç kim Klinton ailəsi haqqında, xanımın dövlət katibi və sonra da prezident namizədi olması haqqında danışmır və bunun kimi bir çox hallar var. Bu məsələni qaldırmazdan əvvəl, qoy, onlar özlərinə baxsınlar. Xanımıma gəldikdə, mənim xanımım 2005-ci ildən bəri parlamentin üzvü olmuşdur. O, sosial və humanitar sahələrlə bağlı olan məsələlərdə çox fəal idi. O, Qafqazda ən böyük qeyri-hökumət təşkilatı olan Heydər Əliyev Fondunun prezidenti olub və olmağa davam edir. Onun azərbaycanlılar arasında güclü dəstəyi var. Siz küçədə istənilən şəxsdən soruşa və onların onu necə sevdiyini və dəstəklədiyini görə bilərsiniz. O, Yeni Azərbaycan Partiyasının sədr müavini olub və olmağa davam edir. Buna görə də onun siyasi karyerası qəfil baş verən hadisələrdən ibarət olmamışdır. Sizə deyə bilərəm ki, mən ona bu vəzifəni təklif etdikdə, o, bunu o qədər də sevinclə qarşılamamışdır. Sizə deyə bilərəm ki, ola bilsin mən bunu ilk dəfə deyirəm, onu inandırmaq üçün çoxlu vaxtım getdi və mənim arqumentlərim var idi və o, istəmirdi. O, tamamilə sosial və humanitar məsələlərlə məşğuldur və on minlərlə insana yardım edir. Lakin o, bunu hər hansı bir piarsız, reklamsız və elansız edir. Beləliklə, o, xalqımızın qürur duyduğu bir şəxsdir.

***-Siz söz azadlığı və interneti qeyd etdiniz. Lakin sosial şəbəkə sistemlərində bəzi məhdudiyyətlər var.***

- Bunlar müvəqqəti məhdudiyyətlərdir. Bu məhdudiyyətlər toqquşmalar başladıqdan sonra tətbiq olunmuşdur. Biz xalqımıza elan etdik ki, bu, milli təhlükəsizlik məsələləridir, çünki biz belə bir vaxtda informasiya sistemimizi erməni təxribatından qorumalıyıq. Beləliklə, bu, müvəqqəti səciyyə daşıyır. Toqquşmaların aktiv fazası bitən kimi bütün bu məhdudiyyətlər aradan qaldırılacaqdır. Lakin sizə deyə bilərəm ki, internetin əhatə dairəsi çox yüksəkdir və azərbaycanlıların 80 faizdən çoxu internet istifadəçiləridir. Beləliklə, bu, yalnız müvəqqəti xarakter daşıyır.

***- Zati-aliləri, icazə verin, söhbətimizi sonuncu sualla yekunlaşdırım. Gəlin, ümidverici bir məqamla bitirək. Sizin münaqişənin sülh yolu ilə nizamlanmasına ümidiniz varmı? Sülh Ermənistan və Azərbaycana nə verə bilər? Çünki Ermənistan dənizə çıxışı olmayan ölkədir, sərhəd burada qapalıdır, Türkiyə tərəfində sərhəd qapalıdır, onların iqtisadiyyatı tənəzzülə uğrayır. Sülh iki ölkəyə nə verə bilər?***

- Bəli, əlbəttə ki, sülh regiondakı vəziyyəti tamamilə dəyişəcək. Üç Qafqaz ölkəsinin əməkdaşlıq edəcəyi vaxtı görməyi ümid edirəm. İndi məsələn, Azərbaycan və Gürcüstan arasında əməkdaşlıq səviyyəsi çox yüksəkdir. Biz strateji tərəfdaşıq və bizim Gürcüstanın hazırkı hökuməti ilə mükəmməl əlaqələrimiz var. Biz bir-birimizi dəstəkləyirik, biz yaxşı qonşu və dostuq. Baxın, biz birlikdə nə qədər layihə icra etmişik, neftin nəqli, qazın nəqli, elektrik enerjisinin nəqli, dəmir yolu bağlantısı, Bakı-Tbilisi-Qars, Bakı-Tbilisi Ceyhan, Bakı-Tbilisi-Ərzurum, TANAP və bir çox başqa layihələr. Azərbaycan, zənnimcə, Gürcüstanda Türkiyə ilə birlikdə birinci və ya ikinci ən böyük investordur. Birinci və ya ikinci ən böyük vergi ödəyicisidir. Yeri gəlmişkən, 1990-cı illərin ortalarında, boru kəmərinin tikintisi məsələsi müzakirə olunanda Qərbdən bu boru kəmərinin Ermənistandan keçməsi ilə bağlı bəzi təkliflər var idi. Lakin belə olan halda Ermənistan əraziləri boşaltmalı idi və belə olduqda boru kəməri Azərbaycandan Ermənistana, sonra Naxçıvana və oradan Türkiyəyə keçə bilərdi. Bu, ən qısa marşrut idi. Xəritəyə baxsanız, siz boru kəmərinin keçdiyi marşrutu görəcəksiniz. Ermənistandan yan keçmək üçün o, bu cür çəkilib. Lakin ermənilər düşündü ki, biz bu boru kəmərini inşa edə bilməyəcəyik. Ona görə onlar yox dedilər. Hesab edirəm ki, indi onlar buna çox peşmandırlar. İşğala görə onlar dalana dirəniblər. Onlar hesab edirdilər ki, biz boru kəmərlərini, dəmir yollarını inşa edə bilməyəcəyik. Onlar həmişə Qars-Gümrü dəmir yolunun istismarını dəstəkləyirdilər. Bu dəmir yolu mövcud idi, lakin Ermənistanın işğalına görə bizim qardaş Türkiyə onu bağlamışdır. Beləliklə, əslində, Ermənistanın dənizə çıxışı var, lakin Azərbaycana qarşı təcavüzə və Türkiyəyə qarşı ərazi iddialarına görə onların Türkiyə ilə sərhədi yoxdur. Bəlkə siz bilmirsiniz, lakin onların konstitusiyasında Türkiyəyə qarşı ərazi iddiaları yer alır. Türkiyə kimi qüdrətli ölkəyə qarşı ərazi iddialarına indiki vaxtda malik olmaq üçün gərək ağılsız olasan. Lakin bu, onların ideologiyasının mahiyyətidir. Danışıqlar aparılan zamanı əvvəlki Ermənistan hökumətinə mesajlar göndərilmişdir ki, onlar işğala son qoyduğu təqdirdə Azərbaycan Dağlıq Qarabağda müxtəlif sosial və iqtisadi layihələri icra edə bilər. Bu mesajlar Minsk qrupunun həmsədrləri vasitəsilə Ermənistanın əvvəlki prezidentlərinə göndərilmişdir və onlar bunları rədd etmişdir. Bu gün Dağlıq Qarabağda insanlar yoxsulluq içində yaşayırlar. Bilirsiniz, orada tam işsizlik, yoxsulluq hökm sürür və infrastruktur dağıdılıb. Biz sərmayə yatırmağa hazır idik. Lakin biz dedik ki, əraziləri boşaldın və biz sizə kömək edərik. Bu gün biz özümüz əraziləri azad etdikdə, əlbəttə ki, biz o insanlara, Dağlıq Qarabağda yaşayan ermənilərə və sözsüz ki, bu ərazini yenidən qurmaq üçün qayıdacaq azərbaycanlılara kömək edəcəyik. Lakin əgər Ermənistan konstruktiv addımlar atsa və əraziləri boşaltsa, əlbəttə ki, biz bütün kommunikasiyaları açacağıq. Mən bilirəm, həmçinin Türkiyə hökumətinin mövqeyi barədə də eşitmişəm ki, onlar da Ermənistanın əraziləri boşaltdığı təqdirdə kommunikasiyaları açacaqlar. Onda Cənubi Qafqazda vəziyyət tamamilə dəyişəcəkdir.

***- Cənab Ərdoğan bu niyyəti barədə Sizə bir şey deyibmi?***

- Ola bilsin biz bunu birbaşa müzakirə etməmişik. Lakin, əlbəttə, biz bilirik ki, belə bir mövqe var. Ermənistan-Türkiyə sərhədi işğala görə bağlıdır. İşğala son qoyulsa, sərhəd açılacaq. Bu, Türkiyə hökumətinin rəsmi mövqeyidir və ermənilər bunu bilirlər. Türkiyə və Azərbaycanla münasibətləri normallaşdırmadan Ermənistanın gələcəyi yoxdur. Çünki bazar kiçikdir və daha da kiçilir, əhali azalır, miqrasiya çox yüksəkdir. Bizdə olan məlumata görə, bu gün Ermənistanda real əhalinin sayı iki milyondan azdır, iki milyondan az və o, daha da azalacaq, çünki iş yoxdur, xüsusilə indi, onlar, necə deyərlər, işğal olunmuş çox məhsuldar torpaqlardan məhrum olduqda. Siz səmadan çəkilmiş təsvirlərə baxsanız, onların bizim torpaqlardan qeyri-qanuni məhsullar üçün necə istifadə etdiklərini görərsiniz. Onlar nəinki bizim torpağımızdan, Kəlbəcərdə bizim qızıl mədənlərindən istifadə edirlər. Fəaliyyətlərini dayandırmadığı təqdirdə, orada bizim məhkəməyə verəcəyimiz əcnəbi şirkətlər var. Yeri gəlmişkən, onlar istənilən halda tezliklə fəaliyyətlərini dayandıracaqlar. Beləliklə, bu mühüm kənd təsərrüfatı seqmentindən məhrum olduqlarına görə onlar hətta daha çox problemlərdən əziyyət çəkəcəklər və tənəzzülə uğrayacaqlar, biz isə inkişaf edəcəyik. Bizim əhalimiz artır. Türkiyənin əhalisi 83 milyondur, Azərbaycanın əhalisi 10 milyondur, Ermənistanın əhalisi isə iki milyondan azdır. Onlar məntiqli olmadığı təqdirdə, işğala son qoymadığı təqdirdə burada 10 il, 20 il, 50 ildən sonra necə yaşayacaqları haqqında düşünməlidirlər. Onlar artıq bu təcavüzə son qoymalıdırlar. Biz döyüş meydanında onlara kimin kim olduğunu göstərdik. Onların "cəsur ordusu" haqqında bütün mifləri, sadəcə, bir növ feyk idi. Onların ordusu qaçır. Biz onları məğlub edirik. Biz onlara qalib gəlirik və onlar bizim torpaqlardan çıxana kimi bunu etməyə davam edəcəyik.

***-Bu imkana görə çox sağ olun. Bakıda olmaq həmişə bizdə məmnunluq hissi oyadır.***

- Təşəkkür edirəm.

# Jan-Lük-Reytzer: Azərbaycanın haqlı olduğunu sübut edən BMT qətnamələri var

***Sədaqətli olduğum üçün kiminsə tərəfini tutmayacaq, kimin haqlı və ya kimin səhv etdiyini deməyəcəyəm. Ancaq Azərbaycanın haqlı olduğunu sübut edən BMT Təhlükəsizlik Şurasının qətnamələri var. Bu qətnamələr təsdiqləyir ki, Azərbaycan ərazi bütövlüyünü bərpa etməlidir. Azərbaycanın tələblərini dəstəkləyən hüquqi əsaslar mövcuddur.***

Mətbuatda bəzən deyilir ki, Dağlıq Qarabağda əsasən ermənilər yaşayırlar. Ancaq Dağlıq Qarabağda ermənilərin əksəriyyət təşkil etməsinin səbəbi milyonlarla azərbaycanlının bu torpaqlardan qovulmasıdır. Çoxları bilmədikləri məsələlərdən danışır. Azərbaycan Prezidentinin qaçqınların şəraitini yaxşılaşdırmaq istiqamətində gördüyü tədbirlərə baxmayaraq, çətin şəraitdə, müvəqqəti yaşayış evlərində yaşayan minlərlə azərbaycanlı qaçqın var. Mən qaçqın düşərgələrində onları ziyarət etmişəm. Bunu untmamalıyıq.

AZƏRTAC xəbər verir ki, bu fikirləri Fransa Milli Assambleyasının deputatı, Xarici işlər komissiyasının üzvü Jan-Lük Reytzer "Bourse Plus" qəzetinə müsahibəsində bildirib.

O qeyd edib ki, hər şeydən əvvəl, Fransa münaqişənin həlli prosesində həqiqi rol oynamalıdır. Fransa Minsk qrupunun üzvüdür. Əgər bu gün Türkiyə bu münaqişənin həlli prosesinə qoşulubsa, demək Minsk qrupu üzərinə düşən işin öhdəsindən gələ bilməyib. Bu qrup ədalətli və davamlı həll yolu tapmaq, gərginliyi aradan qaldırmaq üçün təzyiq göstərməli idi. Mövcud vəziyyətə görə hamımız məsuliyyət daşıyırıq. Əziyyət çəkən mülki şəxslər üçün tezliklə atəşkəsə nail olmalı, hər bir tərəfin bu münaqişədən başıuca çıxmasına imkan verməklə üçün real danışıqlar aparmağı bacarmalıyıq.

"Çoxları vəziyyəti bilmədən danışır. Azərbaycan dünyəvi, düzgün istiqamətdə


P26-28-1060_P26-31-655.qxd 21/10/2020 20:07 Page26

en direct avec

>> Interview propos recueillis par Yannick Urrien

Le retour attendu du député rescapé de la Covid 19 à l'Assemblée nationale.

Jean-Luc Reitzer, député LR du Haut-Rhin :

« Je me sens plus légitime et plus libéré pour prendre position sur un certain nombre de sujets sur lesquels je ne me suis pas toujours exprimé en public. »

irəliləyən bir ölkədir. Fransada insanlar əsl vəziyyəti bilmirlər. Azərbaycanlılar böyük xalqdır və dini səbəblərə görə ölkədəki sabitliyi pozmaq istəyən qonşuları var. Deməli, bu bölgədə tarazlığın və sabitliyin yolunu tapmaq özü qəhrəmanlıqdır. Azərbaycan uzun illərdir məhz bu bacarığını göstərir və həyata keçirir. Mənim üçün seçim sadə və aydındır: Azərbaycan əvəzinə islam respublikası istəyirikmi? Yaxud bu xalqın yaşamağa davam edə və ərazi bütövlüyünü səmərəli şəkildə bərpa edə biləcəyini qəbul edirikmi? Fikrimcə, bu gün əsas məsələ budur. Ermənistanla Azərbaycan arasında dini müharibə yoxdur. Doğrudan da haqlı olduğuna inanan bir xalq üçün bu, ərazi və milli suverenlik müharibəsidir. Beynəlxalq ictimaiyyət BMT Təhlükəsizlik Şurasının bir neçə iclası ilə Azərbaycana haqq qazandırbsa, deməli, bunun üçün əsaslı dəlilləri olub", - deyə J.-L.Reytzer vurğulayıb.

# "Türkiyə kimi qardaş ölkə yanımızdadır, hər zaman birlikdəyik"

## *Prezident İlham Əliyev Türkiyənin Baş Ombudsmanını qəbul edib*

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 22-də Türkiyə Respublikasının Baş Ombudsmanı Şərəf Malkoçu qəbul edib. AZƏRTAC xəbər verir ki, qonağı salamlayan Prezident İlham Əliyev qeyd edib ki, haqq işimizi davam etdiririk, Türkiyə kimi qardaş ölkə yanımızdadır, hər zaman birlikdəyik:***

-Salam, xoş gəlmisiniz.

Şərəf Malkoç: Xoş gördük.

Prezident İlham Əliyev: Şadam ki, gəlmisiniz. İndiki şəraitdə sizin Azərbaycanda olmağınızın xüsusi mənası var. Bildiyiniz kimi, Ermənistan Azərbaycana qarşı növbəti təcavüz aktı törədib, növbəti terror aktı törədib. Həm bizim mülki vətəndaşlara, həm də hərbçilərimizə qarşı hərbi cinayət törədib. Bilirəm ki, siz səfər çərçivəsində Gəncə şəhərinə gedəcəksiniz. Orada özünüz görəcəksiniz ki, biz hansı vəhşi düşmənlə üz-üzəyik. Onlar döyüş meydanında bizim qarşımızda duruş gətirə bilmirlər və çalışırlar ki, bu acı məğlubiyyətin əvəzini dinc insanlardan çıxsınlar. Gəncəyə iki namərd hücum və Gəncə şəhərinin ballistik raketlərlə vurulması hərbi cinayətdir. Ermənistan rəhbərliyi bu cinayətə görə cavab verəcək. Bu, qəsdən törədilmiş cinayətdir. Məhz mülki əhalinin yaşadığı yerləri məqsədyönlü şəkildə atəşə tutublar. Bildiyiniz kimi, çoxlu itkilərimiz var, yaralılarımız var, o cümlədən uşaqlar, qadınlar, qocalar. Bu, bir daha erməni faşizminin yırtıcı mahiyyətini göstərir. Bu, bir daha göstərir ki, biz erməni faşizminin belini qırmaqla bölgəmizi böyük bəladan, böyük faciədən xilas etmiş oluruq.



**"Oraya muzdlular, pullu əsgərlər göndərilir. Oraya böyük silahlar göndərilir. Buna baxmayaraq, biz bu çirkin rejimin belini qırırıq, qıracağıq"**



Bununla bərabər, bizim bütün cəbhəboyu şəhərlərimiz və kəndlərimiz hər gün atəşə tutulur. Bu gün mənə verilən məlumata görə, səhər saat 6-dan 8-ə qədər təkcə Tərtər rayonuna 190 mərmi düşüb. Ağdam rayonuna 90-dan çox mərmi düşüb. Elə günlər var idi ki, Tərtər rayonuna 2 min mərmi düşüb. Yəni, onlar bizim şəhərlərimizi dağıtmaq istəyirlər, Azərbaycan xalqının iradəsini qırmaq istəyirlər. Ancaq buna nail ola bilmirlər və daha da çox azğınlaşırlar. Biz intiqamımızı döyüş meydanında alırıq. Biz heç zaman mülki əhaliyə qarşı heç bir addım atmamışıq və atmayacağıq. Baxmayaraq ki, onlar bizim qədim tarixi şəhərimizi - Gəncəni atəşə tuturlar, biz nə Ermənistan şəhərlərini, nə də ki, Dağlıq Qarabağda yerləşən şəhərləri atəşə tutmuruq və tutmayacağıq. Bizim üstünlüyümüz, bax, bu mənəvi dəyərlər çərçivəsində də bir daha özünü büruzə verir və bir daha bütün dünyaya göstərir ki, Ermənistan dünya üçün böyük təhlükədir. Ermənistanda hökm sürən kriminal faşist rejimi bölgəmiz üçün ən böyük təhdiddir və Azərbaycan bu təhdidin aradan qaldırılması üçün əlindən gələni edir. Hər gün cəbhədən xoş xəbərlər gəlir. Hər gün yeni şəhərləri, kəndləri işğalçılardan azad edirik. Müzəffər Azərbaycan Ordusu öz şərəfli missiyasını icra edir.

Sizin bu gün Azərbaycanda olmağınızın çox böyük mənası var. Bildiyiniz kimi, qardaş Türkiyə ilk saatlardan bizə öz dəstəyini göstərmişdir. Hörmətli Prezident Rəcəb Tayyib Ərdoğan, mənim əziz qardaşım ilk saatlardan bildirmişdir ki, Türkiyə Azərbaycanın yanındadır. Türkiyənin digər yüksək vəzifəli şəxsləri də buna oxşar bəyanatlar vermişlər. Türkiyə xalqı bizə öz dəstəyini göstərir. Türkiyə mətbuatında bu münaqişə geniş işıqlandırılır. Azərbaycanın haqq işi Türkiyə mətbuatı vasitəsilə dünyaya çatdırılır. Bunun da çox böyük önəmi var. Çünki əfsuslar olsun ki, bir çox ölkələrin mətbuatı birtərəfli qaydada Ermənistanın tərəfini tutur. Bu, böyük ədalətsizlikdir. Bu, saxtakarlıqdır. Bu, hadisələrin təhrifi deməkdir. Azərbaycanı işğalçı, yaxud da ki, təcavüzkar dövlət kimi təqdim etmək cəhdləri, əlbəttə, heç bir əsasa malik deyil. Ona görə, Türkiyə mətbuatının ilk günlərdən burada olması və döyüş bölgələrindən reportajların verilməsi dünyada da bu məsələ ilə bağlı düzgün məlumatın olmasına xidmət göstərir.

Bir də ki, biz bu illər ərzində beynəlxalq aləmə sübut edirdik və hesab edirəm, sübut edə bilmişik ki, biz haqlıyıq, biz işğala məruz qalmışıq. Bu gün işğaldan azad edilmiş şəhərlərin, kəndlərin mənzərəsi göstərir ki, biz hansı vəhşilərlə üz-üzəyik. O şəhərlərdə, o kəndlərdə, onların böyük əksəriyyətində bir dənə də salamat bina qalmayıb. Füzuli şəhərini tamamilə dağıdıblar. Bir salamat bina tapa bilmədik ki, orada Azərbaycan bayrağını qaldıraq və nəhayət, bu mərasim də keçirildi. Bütün kəndlərimizin binaları dağıdılıb, məscidlərimiz dağıdılıb. Dünən internetdə Zəngilanın bir kəndində dağılmış məscidin görüntülərini bütün dünya gördü. O məsciddə donuzlar saxlayıblar. Bizim məscidlərimizi təhqir ediblər. Bizim bütün tarixi abidələrimizi dağıdıblar. Evlərdən demək olar ki, yalnız daşlar qalıb. Bütün dam örtükləri, pəncərələr, əşyalar talan edilib.

Əfsuslar olsun ki, 1990-cı illərin əvvəllərində xaricdən gələn dəstək hesabına onlar bizim torpaqlarımızı zəbt ediblər. İndi də, indiki şəraitdə də biz görürük ki, onlara xaricdən yardım edilir. Oraya muzdlular, pullu əsgərlər göndərilir. Oraya böyük silahlar göndərilir. Buna baxmayaraq, biz bu çirkin rejimin belini qırırıq, qıracağıq. Haqq işimizi davam etdiririk, Türkiyə kimi qardaş ölkə yanımızdadır, hər zaman birlikdəyik. Bir daha sizə təşəkkür edirəm, xoş gəlmisiniz.

x x x

Türkiyənin Baş Ombudsmanı Şərəf Malkoç:

-Xoş gördük, cənab Prezident. Çox sıx iş qrafikinizdə vaxt ayırıb bizi qəbul etdiyiniz üçün çox təşəkkür edirik, sağ olun.

Azərbaycan torpaqları 30 ildir işğal altındadır. Bütün danışıqlara baxmayaraq, 30 il boyunca irəliləyiş olmadı. Ona görə Sizin bu gün apardığınız mübarizə bir haqq mübarizəsi, hüquq mübarizəsidir, insan haqları sahəsində bir mübarizədir - öz vətəninizdən işğalçıları qovmaq. Bu, beynəlxalq hüququn da, insan vicdanının da, insan əxlaqının da ən təbii və doğru haqqıdır. Siz bunu qeyri-adi dərəcədə gözəl həyata keçirirsiniz.

Sizin hər axşam neçə kəndin, neçə şəhərin işğaldan azad edildiyi barədə açıqlamalarınız bütün Türkiyədə insanların könlünə fərəh, sevinc gətirir. Biz Türkiyə Ombudsmanı olaraq, eyni zamanda, İslam Ölkələri Ombudsmanları Assosiasiyasına sədrlik edirik.

---

İslam Əməkdaşlıq Təşkilatı:

### Ermənistan silahlı qüvvələri işğal olunmuş Azərbaycan ərazilərindən tam və qeyd-şərtsiz çıxarılmalıdır

İslam Əməkdaşlıq Təşkilatı (İƏT) Ermənistan silahlı qüvvələrinin humanitar

Organisation of Islamic Cooperation

atəşkəsə baxmayaraq, davamlı hücum etməsini və dinc əhalini hədəfə almasını pisləyib. AZƏRTAC xəbər verir ki, bu barədə təşkilatın bəyanatında qeyd olunub. Bəyanatda təşkilatın Azərbaycanla həmrəyliyi, İƏT və BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələri vurğulanıb. "Ermənistan silahlı qüvvələri işğal olunmuş Azərbaycan ərazilərindən tam və qeyd-şərtsiz çıxarılmalıdır", - deyə bəyanatda bildirilib.

# Mehriban Əliyeva: “Bu gün Prezident İlham Əliyev başda olmaqla Azərbaycan xalqı yeni tarix yazır”



***Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva Trend İnformasiya Agentliyinə müsahibə verib. AZƏRTAC müsahibəni təqdim edir.***

*- Hər vaxtınız xeyir, hörmətli Mehriban xanım. İlk növbədə, Azərbaycanın bir sıra şəhərlərinin və yaşayış məntəqələrinin işğaldan azad edilməsi münasibətilə Sizi öz adımızdan və oxucularımızın adından təbrik etmək istərdim.*

- Bütün xalqımızı bu əlamətdar hadisələr münasibətilə təbrik edirəm. Demək olar ki, hər gün cəbhədən yaxşı xəbərlər gəlir. Bizim əsgərlər və zabitlər döyüş tapşırıqlarını şərəflə yerinə yetirirlər. Onlar uğurlu əməliyyatlar keçirərək, bir-birinin ardınca şəhərləri və digər yaşayış məntəqələrini işğaldan azad edir, strateji yüksəklikləri tuturlar. Uzun fasilədən, təqribən 30 ildən sonra biz hamımız Azərbaycan əsgərinin doğma torpaqlarımızda bayrağımızı sancmasını qürurla müşahidə edirik. Bu, sadəcə, hərbi uğur deyil. Bu, tarixi ədalətin bərpasıdır, çünki bunlar bizim əzəli, tarixi torpaqlarımızdır.

Mübaliğəsiz demək olar ki, bu gün Prezident İlham Əliyev başda olmaqla Azərbaycan xalqı yeni tarix yazır. Bizim birgə qələbələrimizin tarixini!

Mən xalqın öz Prezidenti ətrafında necə sıx birləşdiyini, dövlət başçısının ümumi məqsəd naminə, Azərbaycan torpaqlarının işğaldan azad edilməsi naminə birləşməyə çağırışını gənclərimizin necə qətiyyətlə və mərdliklə qəbul etmələrini görürəm.

*- Sizin söylədiyiniz hər bir kəlmə xalqımızın istəyi ilə həmahəngdir və əməllərdə, hərəkətlərdə misli görünməmiş fəallıq doğurur. Sizin müraciətinizdən dərhal sonra həmvətənlərimizin erməni yalanlarını və böhtanlarını ifşa etməyə yönəlmiş səyləri buna parlaq sübutdur.*

- İnformasiya məkanında fəallıq göstərmək barədə çağırışıma qoşulan hər kəsə təşəkkür etmək istəyirəm. Biz daim yadda saxlamalıyıq ki, qarşıdurma təkcə bilavasitə döyüş əməliyyatları bölgəsini deyil, həm də informasiya məkanını əhatə edir. Mən bizim gənclərimizin, vətəndaşlarımızın erməni təbliğatının feyklərini necə ifşa etdiklərini, erməni təcavüzü haqqında həqiqəti bütün mümkün platformalarda beynəlxalq ictimaiyyətə necə çatdırdıqlarını görürəm. Onların haqq səsi tarixin saxtalaşdırılması hallarını aşkar etməyə və tamamilə əsassız, açıq-aydın yalan, təhrikçi materialların yayılmasının qarşısını almağa kömək edir.

Kütləvi informasiya vasitələrinin nümayəndələrinə təşəkkür edirəm, onların obyektivliyi və yüksək peşəkarlığı sayəsində bugünkü Azərbaycan reallıqlarını dünyaya çatdırmaq mümkün olur.

Əllərinə bayraq götürərək təcavüzkara etirazlarını bildirən və Ermənistanın işğalçı mahiyyətini beynəlxalq ictimaiyyətə göstərən xaricdə yaşayan soydaşlarımızı qeyd etməmək mümkün deyil. Azərbaycan xalqı ilə həmrəy olan, ona dəstək olaraq öz prinsipial və ədalətli mövqeyini nümayiş etdirən dünyadakı bütün dostlarımıza minnətdaram.

Bu gün biz hamımız cəbhədə baş verənlər barədə fikirlərlə yaşayırıq. Azərbaycan xalqı öz Prezidentinə inanır və əmindir ki, Prezident nəyi necə, nə vaxt etmək lazım olduğunu bilir. Buna görə də biz bütün hərəkətlərimizdə və fəaliyyətimizdə həmişəkindən daha çox həmrəyik. Şübhəsiz, bizim əsgərlərimiz bu dəstəyi hiss edirlər. Bilirlər ki, onların arxasında bütün Azərbaycan xalqı dayanır.

*- Mehriban xanım, Siz bəyanatlarınızda dəfələrlə qeyd etdiyiniz kimi, hətta düşmənin mülki əhaliyə qarşı vəhşicəsinə təxribatlarına baxmayaraq, xalqımız inanılmaz ruh yüksəkliyi və mərdlik nümayiş etdirir.*

- Təəssüf ki, erməni tərəfi məqsədyönlü şəkildə nəinki beynəlxalq konvensiyaların tələblərini pozur, hətta əxlaq normalarını tapdalayır.

Gəncə, Mingəçevir, Tərtər, Bərdə, Ağdam, Ağcabədi, Goranboy, Naftalan və digər yaşayış məntəqələrinin dinc əhalisinə edilən hücumlar Ermənistanın Azərbaycana qarşı məkrli siyasətini açıq ifşa edir. Dəfn mərasimi zamanı qəbiristanlığı necə atəşə tutmaq olardı? Gecə vaxtı, sakinlər yatarkən Gəncə şəhərini raket atəşinə necə məruz qoymaq olardı? Günahsız mülki şəxslər, uşaqlar, qadınlar həlak olub. Bu, insanlığa qarşı cinayətdir, bu, terrorizmdir. Bütün bunlar birmənalı şəkildə göstərir ki, Yerevanın sülhdə marağı yoxdur, o, yalnız münaqişənin eskalasiyasını, onun regional qarşıdurmaya çevrilməsini arzu edir.

*Lakin Ermənistanın heç bir alçaq əməli, - nə siyasi platformaya əsaslanan iyrənc provokasiyaları, nə informasiya məkanında məkrli avantüraları, nə dinc vətəndaşlara vəhşicəsinə hücumları, - heç nə Azərbaycan xalqının iradəsini sındıra bilməz. Birlik, həmrəylik, bir-birinin dərdinə şərik olmaq və qarşılıqlı dəstək nümayişi müəyyən mənada heç kəsin heç vaxt bizim iradəmizi və Vətənimizi işğaldan azad etmək istəyimizi sındıra bilməyəcəyinə dair Azərbaycan xalqının ismarıcıdır.*

Mən dünya birliyini baş verən bu hadisələrə laqeyd qalmamağa və Azərbaycanın mülki əhalisinə qarşı vəhşicəsinə qəddarlığı kəskin pisləməyə çağırıram. Yerevan beynəlxalq konvensiyalara, habelə BMT Təhlükəsizlik Şurasının erməni işğalçı qüvvələrini Azərbaycana qarşı təcavüzü dayandırmağa çağıran qətnamələrinə etinasızlığa son qoymalıdır.

Azərbaycan dövlətinin heç vaxt başqalarının torpaqlarında gözü olmayıb. Biz dinc əhaliyə hücum etmirik. Bizim işimiz haqq işidir. Bizim ordumuz əzəli Azərbaycan torpaqlarını işğaldan azad edir. Bizim əsgərlər qəhrəmanlıq və igidlik göstərərək Vətən uğrunda şərəflə döyüşür, öz adlarını Azərbaycanın tarixinə yazırlar. Mən bütün yaralıların tezliklə sağalmalarını arzu edirəm. Həlak olmuş hərbi qulluqçuların ailələrinə, doğmalarına dərin hüznlə başsağlığı verirəm. Vətən naminə şəhid olmuş igid övladlarımıza Allah rəhmət eləsin. Onların qanı yerdə qalmayacaq və qalmır. Düşmənə layiq olduğu cavab verilir.

Mənim tapşırığımla Heydər Əliyev Fondu həlak olanların ailələrinə lazımi kömək göstərir. Yaralı əsgərlərin sağalması və normal həyata qayıtması üçün nə mümkündürsə edilir. Bu gün bizim bütün yaralı əsgər və zabitlər tezliklə ayağa qalxmaq və Vətən uğrunda ədalətli mübarizəni davam etdirmək üçün yenidən döyüş əməliyyatları zonasına yola düşmək istəyirlər. Budur Azərbaycan xalqının ruh yüksəkliyi və vətənpərvərliyi.

*- Mehriban xanım, Siz bu günlərdə xalqımızın qeyri-adi birliyini qeyd etdiniz. Koronavirus pandemiyasına qarşı mübarizədə bir növ şüara çevrilmiş “Biz birlikdə güclüyük!” cümləsini hamımız xatırlayırıq. Demək olarmı ki, bu gün həmin cümlə xüsusi məna kəsb edir?*

- Bu, şübhəsiz belədir. Biz yalnız birliyimizi qorumaqla və Prezidentin ətrafında sıx birləşməklə bu ilin yadda qalacağı bütün çağırışları və çətinlikləri dəf edə bilərik.

Siz koronavirus pandemiyasını xatırlatdınız və mən bu məsələyə bir qədər ətraflı toxunmaq istərdim. Biz bu günədək vaxtında və hərtərəfli düşünülmüş tədbirlər sayəsində dünyanın bir çox ölkələrinin üzləşdiyi faciəli ssenaridən xilas ola bilmişik. Ekspertlərin fikrincə, bizim ölkəmiz epidemiyanın ilk və olduqca təhlükəli mərhələsini ən az sayda itki ilə başa vurmuş dövlətlər sırasındadır. Biz epidemiya ilə mübarizənin bütün aspektlərini koordinasiya edən peşəkar komanda yaratmağa, zəruri texniki və insan resurslarını birləşdirməyə müvəffəq olduq. Tətbiq edilmiş karantin tədbirləri koronavirusun yayılma sürətini azaltmağa kömək etdi. Biz birlikdə Vətənimizi bu xəstəliyin təhlükəli surətdə yayılmasından qoruya bildik.

Təəssüf ki, çoxsaylı ölkələrə və xalqlara bu qədər bəla və iztirab gətirmiş virusa hələ də qalib gəlmək mümkün olmayıb. O, hələ də ciddi təhlükə mənbəyidir, bütün dünyada pisləşməkdə olan statistika buna sübutdur. Pandemiyaya qarşı müharibə hələ davam edir. Avropa dövlətlərinin çoxunda çoxsaylı məhdudiyyətlər yenidən qüvvəyə minir.

Təəssüf ki, bizim ölkəmiz də istisna deyil. Məlumdur ki, son günlərdə yoluxanların sayının artması müşahidə olunur, təhsil müəssisələrində, ictimai nəqliyyatda yenidən bəzi məhdudiyyətlər tətbiq edilib.

Mən sizin hər birinizi koronavirusun təhlükəli olduğunu unutmamağa, aylarla riayət etdiyimiz elementar qaydaları gözləməyə, məsafəyə riayət etməyə, həqiqətən real zərurət olmadığı halda insanların kütləvi şəkildə toplaşdığı yerlərə getməməyə çağırıram. Bizə yaxşı məlum olan bütün bu qaydalar yoluxma riskini azaltmağa və deməli, bizi və yaxınlarımızı xəstəlikdən qorumağa kömək edər. Biz yaşlı nəslə həmişə xüsusi qayğı və hörmətlə yanaşırıq. Pandemiyanın birinci mərhələsi dövründə biz onları qayğı ilə qoruduq. Əminəm ki, indiki şəraitdə biz daha diqqətli olacağıq.

Bu gün, ordumuz öz tarixi missiyasını davam etdirdiyi bir vaxtda dövlətimizin, o cümlədən səhiyyə sisteminin üzərinə düşən yükü maksimum azaltmaq lazımdır. İndi bütün resursların bizim xilaskarlıq əməliyyatı üzərində cəmləşməsi müstəsna əhəmiyyət kəsb edir. Biz arxa cəbhədə öz sağlamlığımızın qeydinə qalmaqla, sayıqlıq və intizam nümayiş etdirməklə, eyni zamanda, ön cəbhədəki əsgərlərimizə kömək edir və onları qoruyuruq.

Əminəm ki, biz bu vəzifənin öhdəsindən gələcəyik və bir daha sübut edəcəyik ki, gücümüz birlikdədir!

## Putin: “Azərbaycan ərazisinin əhəmiyyətli bir hissəsinin itirildiyi vəziyyət əbədi davam edə bilməz”



Azərbaycan ərazisinin əhəmiyyətli bir hissəsinin itirildiyi vəziyyət əbədi davam edə bilməz. AZƏRTAC xəbər verir ki, bu fikri Rusiya Prezidenti Vladimir Putin “Valday” klubunun iclasında bildirib. Rusiya Prezidenti Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin dünən Moskvaya gəldiklərini, ayın 23-də isə Vaşinqtonda görüşəcəklərini bildirib. “Çox ümid edirəm ki, amerikalı tərəfdaşlarımız bizimlə həmrəylik göstərəcək və nizamlanmaya kömək edəcəklər”, - deyə o əlavə edib.

## Türkiyə və İran prezidentləri arasında telefon danışığı olub



Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan və İran İslam Respublikasının Prezidenti Həsən Ruhani arasında telefon danışığı olub. AZƏRTAC Türkiyə Prezident Administrasiyasının İctimai əlaqələr idarəsinə istinadla xəbər verir ki, dövlət başçıları ikitərəfli əlaqələrin inkişaf etdirilməsi və terrorla mübarizənin artırılması, eləcə də Azərbaycan-Ermənistan və Suriya məsələləri başda olmaqla regional prosesləri müzakirə ediblər.

Danışıq əsnasında Azərbaycan torpaqlarının işğalı və təxribatları ilə qarşıdurmanı başladan Ermənistanın dinc əhaliyə qarşı həyata keçirdiyi hücumların müharibə cinayəti olduğunu vurğulayan Prezident Ərdoğan bu məsələdə haqlı ilə haqsızı, işğal edilənlə işğalçını ayırd edən bir nöqtədə durmağın vacibliyini ifadə edib.

# XİN: Siyəzən, Kürdəmir və Qəbələ rayonlarına raket hücumları Ermənistanın münaqişə zonasının coğrafiyasını genişləndirmək cəhdlərindən xəbər verir

***Xarici İşlər Nazirliyi (XİN) Ermənistan tərəfindən Azərbaycanın münaqişə zonasından çox uzaqda yerləşən yaşayış məntəqələrinə hücumların davam etməsinə dair açıqlama yayıb.***

XİN-in Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, Ermənistanın silahlı qüvvələri beynəlxalq hüquqa, o cümlədən beynəlxalq humanitar hüquqa dair öhdəliklərini kobud şəkildə pozaraq, Azərbaycanın əhalinin sıx yaşadığı yaşayış məntəqələrini qəsdən atəşə tutmağa davam edir.

Oktyabrın 22-də səhər saatlarında Azərbaycan ərazisi Ermənistan ərazisindən əməliyyat-taktiki raket kompleksindən atılan ballistik raketlərin atəşinə məruz qalıb. Ermənistan silahlı qüvvələri münaqişə zonasından yüzlərlə kilometr məsafədə yerləşən Siyəzən rayonu istiqamətində 3, Qəbələ rayonu istiqamətində 2 və Kürdəmir rayonu istiqamətində 1 raket atıb. Ermənistan silahlı qüvvələrinin hədəfi dinc əhali və mülki infrastruktur olub.

Gəncə və Mingəçevir şəhərlərindən sonra Azərbaycanın işğal olunmuş ərazilərindən xeyli kənarda yerləşən Siyəzən, Kürdəmir və Qəbələ rayonları istiqamətində raketlərin atılması Ermənistanın Azərbaycanın dinc əhalisinə qarşı yeni dəhşətli cinayətlər törətmək üçün növbəti cəhdidir. Bu hücumlar bir daha Ermənistanın münaqişə zonasının coğrafiyasını genişləndirmək cəhdlərindən xəbər verir və onun vəziyyəti daha da gərginləşdirməyə xidmət etdiyini göstərir.

Ermənistanın bu təcavüz aktlarını qətiyyətlə pisləyir, beynəlxalq ictimaiyyəti Ermənistanı beynəlxalq hüquqa və öhdəliklərinə riayət etməyə məcbur etmək üçün lazımi addımlar atmağa çağırırıq. Münaqişənin diplomatik həlli yolunun olmadığını bildirən, Azərbaycanın mülki əhalisini və yaşayış məntəqələrini atəşə tutmaq əmrini verən Ermənistan rəhbərliyi bölgədə gərginliyin artmasına, habelə Ermənistanın Azərbaycana qarşı yeni təcavüzü zamanı törədilən müharibə cinayətlərinə görə tam məsuliyyət daşıyır.

# Türkiyənin Baş Ombudsmanı: Gəncədə dinc insanların, azyaşlı uşaqların öldürülməsi cinayət və vəhşilikdir



***Gəncəni ziyarət etməkdə məqsədimiz burada insanlığa qarşı vəhşiliyi, gecə vaxtı atılan raketlərlə dinc insanların, mülki vətəndaşların, azyaşlı uşaqların öldürüldüyünü bilavasitə görməkdir. Dinc insanları hədəfə alaraq mərmi atmaq, onları gecə vaxtı öldürmək cinayət və vəhşilikdir.***

AZƏRTAC-ın bölgəyə ezam olunmuş müxbiri xəbər verir ki, bunu Gəncəyə səfər edən İslam Ölkələri Ombudsmanlar Assosiasiyasının prezidenti, Türkiyə Respublikasının Baş Ombudsmanı Şərəf Malkoç deyib.

Baş Ombudsman bildirib ki, belə cinayətlər tarixin heç bir dövründə bağışlanmayıb. Bu cinayəti məqsədyönlü şəkildə törədənlər, mülki şəxsləri qətlə yetirənlər, insanları raket atəşinə tutanlar mütləq müəyyənləşdiriləcək və onlar cəzalandırılacaqlar. Tarix bunun canlı şahididir. Mən Türkiyənin Ombudsmanı olaraq, eyni zamanda, İslam Ölkələri Ombudsmanlar Assosiasiyasına sədrlik edirəm. Bu məsələdə Azərbaycan Ombudsmanı ilə həmrəylik içərisindəyik. Zərərçəkmiş insanlarla, səlahiyyətli şəxslərlə görüşmək üçün buraya gəlmişəm. İnşallah, buradakı işlərdən sonra hazırlayacağımız məruzəni əvvəlcə Türkiyədəki insan haqları təşkilatlarına, sonra İƏT-in, daha sonra dünyadakı bütün insan haqları qurumlarına və ombudsmanlara, İnsan Hüquqları üzrə Avropa Məhkəməsinə, BMT-yə göndərəcəyik. Çünki haqsızlıqlardan danışmadıqca yalan söyləyənlər həqiqətləri deyənləri üstələyir.

Türkiyənin Baş Ombudsmanı qeyd edib ki, Ermənistan Azərbaycan torpaqlarını otuz ildir işğal altında saxlayır. BMT, ATƏT və digər beynəlxalq qurumlar münaqişənin həlli üçün ciddi addım atmayıblar. Otuz il davam etmiş bu münaqişənin daha da uzanması mümkün deyil. Bu baxımdan Azərbaycanın haqlı mübarizəsini, beynəlxalq hüquqa uyğun olaraq öz ərazilərini müdafiə etməsini biz insan haqları təşkilatı, ombudsman olaraq ürəkdən dəstəkləyirik. Çünki bu, haqlının mübarizəsidir.

Şərəf Malkoç diqqətə çatdırıb ki, Azərbaycan xalqının və dövlətinin birliyi bu dövrdə çox böyük əhəmiyyət kəsb edir. Digər bir mühüm amil isə Prezident Rəcəb Tayyib Ərdoğan ilə Azərbaycan Prezidenti İlham Əliyevin dostluğu və həmrəyliyidir. Bu dostluq və qardaşlıq Qafqazda sülhü və sabitliyi təmin edəcək. Ümidvaram, Azərbaycan bu haqlı mübarizəsində zəfər qazanacaq, işğala son qoyulacaq, məcburi köçkünlər doğma yurdyuvalarına qayıdacaqlar. "Ermənistanın bu işğal siyasəti hüquqa və mənəviyyata ziddir. Mülki şəxslərin hədəfə alınması, onların raket atəşinə məruz qalması nəticəsində çoxlu sayda şəxs həlak olub. Azərbaycanın özünü qanuni müdafiəsi və Türkiyənin, eləcə də beynəlxalq hüquqa hörmət edən digər ölkələrin bu özünümüdafiəyə dəstəyi nəticəsində mülki şəxsləri hədəfə alanlar mühakimə ediləcəklər", - deyə Türkiyənin Baş Ombudsmanı vurğulayıb.

# Misir saytları: Ermənistan Azərbaycanın yaşayış məntəqələrinə ballistik raketlər atıb

***Misirin "Garbnews" informasiya portalı və "Aldiplomasy" internet nəşri Ermənistanın yenidən Azərbaycanın yaşayış məntəqələrinə raket hücumu barədə xəbərlər yayıblar.***




AZƏRTAC-a istinadla yayılan xəbərlərdə bildirilir ki, Cəbrayıl, Füzuli və Zəngilan şəhərləri də daxil olmaqla, 120-dən çox yaşayış məntəqəsini düşməndən azad edən Azərbaycan Ordusunun qarşısında aciz qalan Ermənistan oktyabrın 22-də səhər saatlarında Siyəzən, Qəbələ və Kürdəmir rayonlarını raket atəşinə tutub.

Qeyd olunub ki, Qəbələdə bir nəfər dinc sakin müxtəlif dərəcəli bədən xəsarətləri alıb, 5 evə ciddi ziyan dəyib. Həmçinin düşmən silahlı qüvvələri Abşeron yarımadasını içməli su ilə təchiz edən və xüsusi strateji əhəmiyyətə malik Oğuz-Qəbələ-Bakı su kəmərini raketlə hədəfə alıb. Lakin raketin Azərbaycan Ordusunun Hava Hücumundan Müdafiə Qüvvələri tərəfindən zərərsizləşdirilməsi nəticəsində onun hissələri su kəmərinin yaxınlığına düşüb. Misir saytları, həmçinin Azərbaycan Müdafiə Sənayesi Nazirliyinin müəssisələrində yeni növ zərbə tipli, daha böyük dağıdıcı gücə malik "İti qovan" pilotsuz uçuş aparatlarının seriyalı istehsalına başlanıldığını da qeyd ediblər.

# Prezidentin köməkçisi: Ermənistanın ağılsızlığının həddi-hüdudu yoxdur



Azərbaycanın möhtəşəm turizm mərkəzi olan və hərbi əməliyyatların aparıldığı ərazidən uzaqda olan Qəbələ şəhəri Ermənistanın raket zərbələrinə hədəf olub. AZƏRTAC xəbər verir ki, bunu Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev "Twitter"də qeyd edib.

Prezidentin köməkçisi bildirib ki, raketlər Ermənistanın Qafan və Cermux bölgələrindən Qəbələyə atılıb. Çox güman ki, vaxtilə Səddam Hüseynin istifadə etdiyi "SCUD" raketləri ilə Qəbələyə zərbə endirilib. Ermənistanın ağılsızlığının həddi-hüdudu yoxdur.

# Müdafiə Nazirliyi: Azərbaycan Ordusu qələbə əzmi ilə döyüşləri davam etdirir




"Ali Baş Komandan İlham Əliyevin də qeyd etdiyi kimi, Zəngilan rayonunun Ağbənd qəsəbəsinin azad edilməsi ilə Azərbaycan-İran dövlət sərhədi tam nəzarətə götürülüb. Hazırda cəbhənin bütün istiqamətlərində döyüşlər davam edir".

SİA-nın məlumatına görə, bunu dünən keçirilən brifinqdə Müdafiə Nazirliyinin mətbuat katibi Anar Eyvazov deyib. O qeyd edib ki, Azərbaycan Ordusu qələbə əzmi ilə döyüşləri davam etdirir: "Qələbə bizimlədir!"

# Fuat Oktay: Azərbaycandan hərbi dəstək istəsə, Türkiyə tərəddüd etməz



"Azərbaycandan hərbi dəstək istəsə, Türkiyə tərəddüd etmədən tələbi yerinə yetirəcək". SİA-nın məlumatına görə, bunu Türkiyə Prezidentinin müavini Fuat Oktay deyib. O bildirib ki, Türkiyə ilə Azərbaycan arasında hərbi əməkdaşlığa dair saziş mövcuddur. Bu səbəbdən də Türkiyənin tərəddüd etməsinə səbəb olmayacaq. "Görürük ki, mülki insanların qətlə yetirilməsinə dünya birliyi səssiz qalır. Türkiyə olaraq ilk andan bəri deyirik ki, Azərbaycan bu məsələdə tam haqlıdır, Ermənistan isə işğalçı tərəfdir. Türkiyə sonuna qədər Azərbaycanın yanında olmağa qərarlıdır. Prezidentimiz də bunu ilk gündən açıq-aşkar bəyan edib. Yenə deyirəm: bu məsələdə nə Türkiyə, nə də prezidentimiz qətiyyən tərəddüd etməyəcək. Qarşımızda atəşkəs razılaşmasının mürəkkəbi qurumadan dinc insanlara raket hücumu edən terror dövləti var. Heç kimə də sirr deyil ki, bu gün terror təşkilatları Ermənistana kömək edir", - deyə F.Oktay bildirib.

*Aysel Məmmədova*

# Türkiyə mediası: Azərbaycan xalqı Ermənistanın vəhşiliyinə qarşı daha sıx birləşir



Türkiyə kütləvi informasiya vasitələri (KİV) Ermənistanın işğalçılıq siyasəti və ölkəmizə qarşı yeni hücumlar səbəbindən bölgədə yaranmış hərbi gərginliyi gündəmdə saxlamaqdadır.

AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyevin gərgin və səmərəli fəaliyyəti, Tvitter hesabında paylaşımları, eləcə də cəbhə bölgəsində baş verən proseslərlə bağlı Müdafiə Nazirliyinin rəsmi məlumatları, həmçinin Azərbaycan Prezidentinin köməkçisi-Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyevin vəziyyətlə bağlı açıqlamaları qardaş ölkə KİV-lərində sürətlə yayılır. Türkiyə mediası yazır ki, Azərbaycan xalqı Ermənistanın vəhşiliyinə qarşı daha sıx birləşir. Hazırda "Qarabağ Azərbaycandır!", "Hər şey Qarabağ üçün!", "Vətən sağ olsun!" şüarları Azərbaycan xalqının həyat devizinə çevrilib.

# Adil Əliyev: İşğaldan azad olunan ərazilərimizə yeni nəfəs gələcək!

***İşğaldan azad edilmiş şəhər və rayonlarımızın siyahısının artması, mütəmadi olaraq yeni qələbə xəbərlərinin gəlməsi hər bir azərbaycanlını sevindirir. Azərbaycanın ərazi bütövlüyü uzun illərdən sonra bərpa olunmağa başlayır, torpaqlarımız kənd-kənd, qarış-qarış düşmən tapdağından təmizlənir. Necə qürur duymaya bilərik axı? Təxminən 30 ilə yaxın işğal altında olan tarixi məskənlərimizin azad edilməsini, həmçinin Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə şanlı Ordumuzun Ermənistana vurduğu zərbəni xain qonşularımız uzun illər unutmayacaq...***



Bu fikirləri AZƏRTAC-a açıqlamasında Milli Məclis Sədrinin müavini Adil Əliyev bildirib. Adil Əliyev deyib ki, bu gün yalnız Ermənistan hərbi cəhətdən uduzmur və düşmənin döyüş meydanında silahlı texnikası məhv olmur, eyni zamanda, bu ölkənin iqtisadiyyatı da artıq çökür. Bu günə qədər Ermənistanın itkisi 1,5 milyard dolları keçib, büdcəsi də ki, məlumdur.

COVID-19 infeksiyasının Ermənistan ərazisində sürətlə yayılması və vəziyyətə nəzarət etmə imkanlarının olmaması səbəbindən onsuz da bu ölkənin iqtisadiyyatının tənəzzül yaşadığını deyən Milli Məclis Sədrinin müavini bildirib: "Üstəgəl, haqsız olaraq apardığı müharibədə itirdikləri iqtisadi resurslar onlara uzun müddət özlərinə gəlməyə imkan verməyəcək. Onların aylarla yığdıqları ianələrlə alınmış silah-sursatı Ordumuz cəmi bir neçə dəqiqə içində məhv edir. Hələ davam edən müharibədə Ermənistanın verdiyi itkilərin isə sayı-hesabı yoxdur. Məğlubiyyətə uğradıqca daha çox geri çəkilməyə məcbur olurlar ki, bu da ordumuzun sürətini və işğaldan azad edilən yurdlarımızın sayını artırır".

A.Əliyev qeyd edib ki, müharibənin ilk günləri Ordumuz kəndləri və qəsəbələri işğaldan azad edirdisə, bu gün artıq bütöv rayon və şəhərləri düşmən təcavüzündən qurtarır. Müdafiə Nazirliyinin döyüş bölgələrindən çəkdikləri videolara baxanda bir daha əmin oluruq ki, Ermənistan rəhbərliyi heç bir halda bu əraziləri sülhlə tərk etməyəcəkdi. İşğaldan azad edilmiş bəzi ərazilərdə son vaxtlara qədər yaşayışın olması bunun əyani sübutudur. Ermənistan yenə də öz vandal əməllərindən əl çəkmir. Belə ki, geri çəkilərkən gələcəkdə istifadəsi mümkün ola biləcək bütün mülki obyektləri məhv edir.

Ermənistanın məğlubiyyəti artıq o yerə çatıb ki, təcavüzkar siyasətin lideri olan baş nazir Paşinyan öz "Facebook" səhifəsindən xalqa çağırış edir. Hamını 30 nəfər şəklində birləşməyə, özlərinə lider seçməyə və döyüşə getməyə çağırır. Bu məsələni şərh etməmişdən əvvəl, erməni xalqının bu paylaşımları necə məsxərəyə qoymasının bir daha şahidi olduq. Vəziyyət o yerə çatıb ki, nizami ordunun qarşısına xalqın 30 nəfərlik qruplarını çıxarmaq istəyir, bunun üçün xahiş edir.

Adi bir nümunəyə baxsaq görərik ki, əvvəlcə yaşı 60-a qədər şəxslərlə bağlı səfərbərlik elan etdilər və burada 60 yaşdan yuxarı şəxsləri də cəlb etdilər. Bundan sonra isə qadınlardan ibarət bölmə yaratmaq istədilər və təbii ki, bu da baş tutmadı. Bu gün isə mülki əhalini döyüşə səsləyir ki, bu daha absurd düşüncədir.

Azərbaycanda isə hər gün on minlərlə gənc Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin yerli bölmələrinə müraciət edərək, döyüşə getmək istədiyini bildirir. Bu, həm də Azərbaycan xalqının öz Liderinə, Ali Baş Komandanına, Ordusuna olan dərin inamının təzahürüdür. Hər birimiz məsuliyyətimizi dərk etməli və apardığımız uğurlu əməliyyatların məntiqi davamına hazır olmalıyıq.

Milli Məclis Sədrinin müavini, həmçinin vurğulayıb : "İşğaldan azad edilən ərazilərimizdə artıq yeni infrastrukturun qurulmasına başlanılması onu göstərir ki, Ermənistanın işğalı bitdikdən sonra tarixi və əzəli torpaqlarımıza yenidən nəfəs gələcək. Talış və Suqovuşan kəndlərinə yeni avtomobil yollarının çəkilməsi böyük qayıdışın artıq başladığının əlamətlərindən biridir. Tarixi torpaqlarımız boşalır və hər birimiz tezliklə işğaldan azad olunan ərazilərimizə geri qayıtmağımızı səbirsizliklə gözləyirik! Qarabağ Azərbaycandır!".

# Hüseyn Paşayev: "YAP Gəncə şəhərində 10 azyaşlı uşağı və daha 5 ailəni himayəyə götürüb"

***"Yeni Azərbaycan Partiyası Vətən müharibəsinin davam etdiyi bu günlər ərzində döyüş bölgəsindən uzaqlarda yerləşən, lakin xain erməni hərbçilərinin bombardmanlarından zərər çəkmiş yaşayış məntəqələrimizdə evləri bu və ya digər dərəcədə dağılmış sakinlərə yardım məqsədilə geniş layihələr həyata keçirməkdədir". SİA-nın verdiyi məlumata görə, bu fikirləri YAP-ın Mətbuat Xidmətinin rəhbəri Hüseyn Paşayev ötən gün partiyanın nümayəndə heyətinin Gəncə şəhərinə səfəri zamanı səsləndirilmiş qərarı şərh edərkən bildirmişdir.***

H.Paşayev qeyd etmişdir ki, Milli Ordumuzun torpaqlarımızın işğaldan azad edilməsi uğrunda həyata keçirdiyi əməliyyatlar Azərbaycanın haqq işidir. Azərbaycan əsgərinin bu müharibədə hədəfi nə yaşayış məskənləri, nə mülki obyektlər, nə də dinc sakinlərdir. Lakin vəhşi xislətli ermənilərin və onların işğalçı ordusunun yaşayış məntəqələrimizi hədəfə çevirməsi nəticəsində yüzlərlə dinc sakinimiz yaralanmış, onlarla uşaq, qadın və qoca həyatını itirmişdir.

"Təəssüf ki, döyüş bölgəsindən çox-çox uzaqlarda yerləşən Gənc şəhərində də daha irimiqyaslı dağıntıların şahidi olduq. Onlarla dinc sakin həyatını itirdi, yüzlərlə yaralımız vardır. Yeni Azərbaycan Partiyası, erməni vəhşiliyinin qurbanı olmuş 8 ailədə valideyinlərini itirmiş 10 azyaşlı uşağın himayəyə götürülməsi barədə qərar qəbul etmişdir. Qəbul edilmiş qərara əsasən, 6 ailəni təmsil edən 6 azyaşlının hər birinə ayda 300 manat, hər ailədən 2 azyaşlı olmaqla daha 4 azyaşlıya isə yetkinlik yaşına çatana qədər ayda 500 manat təqaüd ödəniləcəkdir. Partiya tərəfindən bank vasitəsilə ödəniləcək bu vəsaitlər uşaqların dövlət tərəfindən rəsmi surətdə tanınmış himayədarlarına çatdırılacaqdır" - deyə, YAP Mətbuat Xidmətinin rəhbəri bildirib. Hüseyn Paşayevin sözlərinə görə, Yeni Azərbaycan Partiyası tərəfindən Gəncə şəhərində raket zərbələri nəticəsində evləri dağılmış daha 5 ailənin himayəyə götürülməsi ilə bağlı da müvafiq addımlar atılmışdır. Belə ki, qəbul edilmiş qərara əsasən, həmin 5 ailə onlar üçün yeni yaşayış evlərinin tikilib istifadəyə verilməsinə qədər yaşayacaqları mənzillərin kirayə haqqı ayda 300 manat olmaqla YAP tərəfindən ödəniləcəkdir.




# Zatulin də ermənilərdən üz döndərdi: "Yorulmuşuq"



"Biz ermənilərdən Rusiyanın nə etmək lazım olduğunu eşitməkdən yorulmuşuq, özünüz nəsə edin". Məlumata görə, bunu rusiyalı siyasətçi Konstantin Zatulin erməni mətbuatına müsahibəsində deyib. O bildirib ki, əgər Ermənistanın KTMT üzvü olaraq maraqları pozulursa, o zaman KTMT-yə müraciət etsinlər: "Ermənistan nə edir? Niyə müraciət etmir? Çünki Ermənistan hökuməti hesab edir ki, Rusiyaya kömək üçün müraciət etsə, qərbli dostlarının xətrinə dəyər. Kimə arxalanacağını müəyyənləşdirmək lazımdır. Rusiyanın bu vəziyyəti həll etməyə çalışması normal deyil. Ermənistan siyasi baxımdan parçalanır. Baş naziriniz isə elə davranır ki, sanki keçmiş prezidenti həbsə atmaqla ölkəni idarə etməyə davam edəcək".

# İsrailin səfiri Gəncədə terror baş verən ərazidə olub



İsrailin Azərbaycandakı səfiri George Deek Gəncə şəhərinə gəlib. SİA-nın rinin verdiyi məlumata görə, səfir Ermənistan silahlı qüvvələrinin terror törətdikləri hadisə yerinə baş çəkib. Hadisə barədə səfirə ətraflı məlumat verilib.

# "Karabakh is Azerbaijan" yazılı avtomobil Londonda Ermənistan səfirliyinin qarşısında




Böyük Britaniyanın paytaxtı Londonda Ermənistanın ölkəmizə qarşı həyata keçirdiyi işğalçılıq siyasəti və Dağlıq Qarabağın Azərbaycanın ayrılmaz tərkib hissəsi olduğunu yerli vətədaşlara tanıtmaq üçün sosial layihə davam etdirilir. SİA-nın məlumatına görə, "Facebook" və "İnstagram" sosial şəbəkələrində fəaliyyətə başlayan "Karabakh" səhifələrinin müəllifləri tərəfindən London küçələrinə üzərində iri hərflərlə "Karabakh is Azerbaijan" yazıları olan promo avtomobillər buraxılıb.

Həmin avtomobillər Londonun mərkəzi küçə və prospektləri boyu hərəkət edərək insanlara Azərbaycanın ərazi bütövlüyünü təmin etmək uğrunda mübarizə apardığı barədə məlumat verib. Bu aksiya London sakinləri, şəhərdə olan turistlər və jurnalistlər tərəfindən maraqla qarşılanıb. Dünən isə sözügedən avtomobil Londonda Ermənistan səfirliyinin qarşısında nümayiş etdirilib.

# Hikmət Babaoğlu: "Azərbaycan-Gürcüstan münasibətləri hər iki ölkə üçün daim strateji əhəmiyyət daşıyıb"



"Azərbaycan-Gürcüstan münasibətləri hər iki ölkə üçün daim strateji əhəmiyyət daşıyıb və nümunəvi hesab edilə biləcək qədər yaxşı münasibətlərdir. Bu münasibətləri hər iki xalqın milli maraqları şərtləndirir. Təsadüfi deyil ki, iki qonşu dövlət arasında olan strateji əhəmiyyətli siyasi münasibətlər həm də çoxsaylı iqtisadi layihələrlə dəstəklənir". Bunu SİA-ya "Yeni Azərbaycan" qəzetinin baş redaktoru, millət vəkili Hikmət Babaoğlu deyib.

Deputatın sözlərinə görə, Azərbaycanın həyata keçirdiyi bütün enerji və nəqliyyat-kommunikasiya layihələri Gürcüstan üzərindən realizə olunaraq Qərbə istiqamətlənir: "Azərbaycan şirkətləri qonşu ölkəyə ciddi sərmayə yatıran şirkətlər sırasında olmaqla həm də bu ölkədə ən böyük vergi ödəyiciləridir. Humanitar sahədə də iki ölkə arasında münasibətlərin tarixi baxımından da, bu gün də çox sıx və inteqrativdir. Turizmdən başlamış digər bütün mədəni mübadilələrə qədər ən müxtəlif sahələrdə qarşılıqlı münasibətlər sistemi də mövcuddur. İki qonşu ölkə istər beynəlxalq, istər regional təşkilatlarda daim bir-birilərini dəstəkləyiblər. İkitərəfli və üçtərəfli diplomatik formatda yeni regional əməkdaşlıq platforması yaratmağa nail olublar. Qarşılıqlı şəkildə bir-birilərinin ərazi bütövlüyünü qeydsiz-şərtsiz dəstəkləyiblər. Təsadüfi deyil ki, son günlərdə Azərbaycanın öz ərazi bütövlüyünü bərpa etmək istiqamətində atdığı addımları ilk dəstəkləyən dövlətlərdən biri də Gürcüstan oldu. Qonşu ölkə qətiyyət nümayiş etdirərək işğalçı Ermənistana silah daşıyan dövlətlərə hava və quru nəqliyyat koridorunu bağladı. Bu, əsl dost və qonşu mövqeyi idi. Ona görə də iki qonşu ölkə arasında münasibətlər bundan sonra da bütün sahələr üzrə inkişaf edəcək və hər iki xalqın maraqlarının təmin olunması üçün daha yaxşı perspektivlər yaradacaq".

# Sadiq Qurbanov: Azərbaycan Ordusu BMT Təhlükəsizlik Şurasının itirilmiş nüfuzunu özünə qaytarır

***“30 ilə yaxındır ki, Azərbaycan dövləti Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüququn norma və prinsipləri əsasında həlli istiqamətində səylər göstərirdi, amma işğalçı Ermənistanın qeyri-konstruktiv mövqeyi, yalanları, riyakarlığı ucbatından danışıqlarda hansısa nəticədən danışmaq qeyri-mümkün idi.***



Dövlətimizin başçısı İlham Əliyev bu günlərdə xalqa müraciətində də bu məqamı xüsusi qeyd etmişdir ki, işğal edilmiş torpaqlarda Ermənistan tərəfindən qurulmuş istehkamlar onu göstərir ki, onlar bu torpaqları bizə vermək fikrində deyildilər. Sadəcə olaraq? bizi və beynəlxalq vasitəçiləri aldadırdılar. Vaxtı uzadır, bununla bərabər işğal edilmiş torpaqlarda qanunsuz məskunlaşma həyata keçirirdilər. Möhtərəm Prezidentimiz İlham Əliyev ən yüksək tribunalardan, xüsusilə bir müddət əvvəl BMT Baş Assambleyasının yubiley tədbirində bu reallığı da dünyaya bəyan etmişdir ki, Ermənistan yeni ərazilər uğrunda müharibə planı hazırlayır. Amma dünya yenə də əvvəlki ənənələrinə uyğun olaraq ikili standartlar siyasətinə sadiqliyi fonunda işğalçının başına sığalından əl çəkmədi”. Bu fikirləri Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri Sadiq Qurbanov açıqlamasında bildirib.

S.Qurbanov qeyd edib ki, BMT Təhlükəsizlik Şurasının qətnamələrinə məhəl qoymayan Ermənistana heç bir sanksiyanın tətbiq olunmaması onun daha böyük iddialarla çıxış etməsinə rəvac verir: “Dövlətimizin başçısı İlham Əliyev haqlı olaraq bildirir ki, beynəlxalq münasibətlərdə hüquq problemi yaşanır. Ermənistana zamanında beynəlxalq təşkilatların qərar və qətnamələrinə məhəl qoymadığına, beynəlxalq hüquq normalarını kobud şəkildə pozduğuna görə sanksiyalar tətbiq edilsəydi, bu qədər azğınlaşmaz, qudurmazdı. N.Paşinyanın bu günlərdə “münaqişənin diplomatik həlli yoxdur” kimi açıqlaması da onun danışıqlar prosesinin bərpası ilə bağlı cəhdlərində, həmçinin dünya dövlətlərinə, nüfuzlu beynəlxalq təşkilatlara yalvarışlarında riyakarlığını göstərir. Ermənistanın baş naziri beynəlxalq hüququn mövcudluğunu inkar edir, onun ardınca münaqişənin diplomatik həllinin mümkünsüzlüyünü bildirərək bütün hakimiyyət orqanlarını, mülki şəxsləri silahlanmaya çağıraraq hərbi əməliyyatlara sövq edir, amma ATƏT-in Minsk qrupunun həmsədrləri seyrçi mövqeyindən əl çəkmir”.

“Azərbaycan 27 il gözlədi ki, qətnamələr icra edilsin. Onlar sadəcə olaraq, kağızda qaldı. Nə üçün? Prezident İlham Əliyevin bəyan etdiyi kimi, çünki siyasi iradə göstərilmədi, bu qətnamələrin icra mexanizmi müəyyən edilmədi. Mənfur düşmən hesab etdi ki, o, bundan sonra da buna məhəl qoymaya bilər” söyləyən S.Qurbanov bildirib ki, 30 ilə yaxın səbir nümayiş etdirən dövlətimiz, xalqımız məsələni özü həll edir, Azərbaycan Ordusu Vətən müharibəsini davam etdirərək, qısa zamanda bütün ərazilərimizi işğaldan azad edəcək: “Həm savaş meydanında, həm də diplomatik müstəvidə sarsıdıcı, öldürücü zərbələrlə qarşılaşan işğalçı ölkə panik duruma düşüb. Əslində, şanlı Ordumuz bu yaramazlara insanlığa düşmən olmağın, azərbaycanlılara qarşı etnik təmizləmə aparmağın, soyqırımı törətməyin, vətəndaşlarımızı doğma torpaqdan didərgin salmağın, əxlaqa, qanuna, beynəlxalq hüququ ayaq altına atmağın bədəlini ödətdirir. Ermənistan “güclü erməni diasporu”, “məğlubolunmaz erməni ordusu” kimi miflərdən ayılmalı, haqq yolunda vuruşan güclü Azərbaycan Ordusunun qarşısında diz çökməli və məğlubiyyətlə barışmalıdır”.

Millət vəkili onu da bildirib ki, bu gün Azərbaycan Ordusu BMT Təhlükəsizlik Şurasının, o cümlədən də beynəlxalq təşkilatların deqretasiyaya uğramış mənəvi dəyərlərini, itirilmiş nüfuzunu özünə qaytarır: “27 il bundan əvvəl-1993-cü il noyabrın 12-də qəbul edilən Zəngilan rayonunun işğaldan azad edilməsi ilə bağlı 884 saylı qətnamənin icrasını ordumuz layiqincə yerinə yetirdi. Hazırda digər 3 qətnamənin icrasına səylər göstərilir. Möhtərəm Prezidentimiz İlham Əliyevin xalqa müraciətində böyük əminliklə söylədiyi “Mən bir daha bəyan edirəm ki, verilmiş bütün vədləri mən yerinə yetirirəm, verilmiş bütün vədlərə sadiqəm. Prezident kimi mənim fəaliyyətim üçün əsas məsələ, əsas vəzifəm Azərbaycan torpaqlarının qaytarılmasıdır, ərazi bütövlüyünün bərpa edilməsidir və bu gün biz bunu döyüş meydanında edirik” fikirləri və bunların reallıqda öz əksini tapması xalqımızı daha da qürurlandırır. Xalqın Ali Baş Komandana olan inamı dövlət siyasətinin gücünü artırır və daha səmərəli edir. Xalq tərəfindən göstərilən etimad böyük qələbəmizi yaxınlaşdırır”.

## ABŞ-ın NATO-dakı səfiri: “Ermənistan Azərbaycanın suveren sərhədlərini tanımalıdır”



ABŞ-ın NATO-dakı səfiri Key Beyli Hatçinson jurnalistlərlə virtual-konfransında söhbətində bildirib ki, Alyans ABŞ və Rusiya nə edirsə, məhz onu etməyə cəhd göstərir. Yəni Dağlıq Qarabağdakı münaqişəni saxlamağa çalışır.

SİA-ya daxil olan məlumata görə, Hatçinson bildirib ki, bu problem 30 ildir irinləyib: “Minsk qrupuna daxil olan ABŞ, Rusiya və Fransa həmsədrləri münaqişəni əvvəli mərhələyə qaytarmaq istəyirlər - məhz Azərbaycanın suveren sərhədlərinə ki, bu çərçivədə erməni əhalisi yaşaya bilər. Bunu həll etmək olar və bu zaman münaqişə başa çatacaq”, deyə səfir Ermənistanın Azərbaycanın suveren sərhədlərini tanımalı olduğunu vurğulayıb.

## Vüqar Rəhimzadə: “Azərbaycan Ordusu BMT TŞ tərəfindən qəbul olunmuş qətnamələrin icrasını təmin edir”



“BMT Təhlükəsizlik Şurasının Azərbaycanın işğal altında olan torpaqlarının azad edilməsinə dair qətnamələri 27 ildir kağız üzərində qalıb. Ötən müddət ərzində nümayişkaranə sürətdə bu qətnamələrə məhəl qoymayan işğalçı Ermənistan ATƏT-in Minsk qrupunun həmsədr ölkələri başda olmaqla BMT və beynəlxalq ictimaiyyət tərəfindən heç bir təzyiq göstərilmədi. Bu günə qədər dünya birliyi təcavüzkarla təcavüzə məruz qalana eyni prinsiplər əsasında yanaşdığına, hətta əksər hallarda işğalçıya dəstək olduğuna görə Ermənistan beynəlxalq hüququ və BMT Təhlükəsizlik Şurasının (TŞ) qətnamələrini ayaq altına ataraq öz qoşunlarını nəinki Azərbaycan ərazilərindən çıxarmadı, əksinə, işğalı möhkəmləndirmək və torpaqlarımızı ilhaq etmək xəttini tutdu. Bu münasibətdən ruhlanan Ermənistanın bugünkü Paşinyan rejimi o qədər həyasızlaşmışdı ki, “Qarabağ Ermənistandır” deyirdi, hətta yeni ərazilərin işğal edilməsi üçün müharibəyə hazırlaşırdı”. Bu fikirləri SİA-ya Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvü, “İki sahil” qəzetinin baş redaktoru, siyasi elmlər doktoru Vüqar Rəhimzadə deyib.

Vüqar Rəhimzadə bildirib ki, Ermənistana qarşı təzyiqlərin olmaması bu ölkənin özünü cəzasızlıq mühitində hiss etməsinə gətirib çıxarmışdı. Ən acınacaqlı mənzərə isə odur ki, Təhlükəsizlik Şurasının qətnamələri son vaxtlar tamamilə BMT-nin və həmsədr ölkələrin yadından çıxmışdı. Digər ölkələrə münasibətdə müxtəlif dövlətlər və beynəlxalq təşkilatlar qətnamələrə istinad etdikləri halda Ermənistanla bağlı həmin sənədlərə toxunmurdular: “BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi 822, 853, 874 və 884 saylı qətnamələrə uyğun olaraq işğalçı qoşunların Azərbaycanın zəbt edilmiş ərazilərindən çıxarılması tələb edilirdi. Lakin çox təəssüflər olsun ki, özünü tam cəzasızlıq mühitində hiss edən Ermənistan bu tələbləri qulaq ardına vurur, qudurqanlığına və özbaşınalığına görə işğalçı dövlətə güldən ağır söz deyən olmurdu. Faktiki olaraq 27 ildən sonra Azərbaycan Ordusu Ermənistanın hərbi təcavüzünə cavab olaraq başladığı əks-hücum əməliyyatları ilə Azərbaycanın işğal altında olan torpaqlarını işğaldan azad etməklə Təhlükəsizlik Şurasının qətnamələrinin icrasını özü təmin edir. Bununla da Azərbaycan Ordusu beynəlxalq hüququ və ədaləti öz silahı gücünə, zəfər döyüşləri ilə təmin etməli olur. Bir az da konkretləşdirmiş olsaq, Azərbaycan Ordusunun gücü və qətiyyəti sayəsində 1993-cü ildən bu günə qədər kağız üzərində qalan BMT TŞ tərəfindən qəbul edilmiş 822, 853, 874 və 884 saylı qətnamələrin icrası təmin olunur”.

## “Le Figaro”: Azərbaycanın Tərtər şəhəri Ermənistan tərəfindən atəşə tutularaq dağıdılır



***Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin yaxınlığında yerləşən və 24 min nəfər əhalisi olan Tərtər şəhəri bir neçə həftədir Ermənistan silahlı qüvvələri tərəfindən artilleriya və raket atəşinə tutularaq dağıdılıb. AZƏRTAC xəbər verir ki, bu barədə Fransanın “Le Figaro” qəzeti dərc olunan “Erməni mərmiləri nəticəsində dağıdılmış Tərtərdə” sərlövhəli məqalədə bildirilib. Qəzet bütöv bir səhifəni Tərtərin erməni silahlı qüvvələri tərəfindən dağıdılması barədə yazılara həsr edib.***

Nəşrdə Tərtər şəhərində dinc əhalinin ermənilər tərəfindən top atəşinə tutulması, mülki evlərin dağıdılması müfəssəl şəkildə təsvir edilib. Qəzet azərbaycanlı hərbi ekspert Heydər Mirzənin müsahibəsinə də yer ayırıb. Hərbi ekspert deyib ki, Azərbaycan Ordusunun irəliləməsinə və artan üstünlüyünə mane olmaq üçün Yerevan xarici müdaxiləyə ümid edir.

## Rusiya deputatı: Rusiya silahlı qüvvələrinin Dağlıq Qarabağda iştirakı planlaşdırılmır



Rusiya silahlı qüvvələrinin Dağlıq Qarabağda iştirakı planlaşdırılmır, bu mövqe Rusiya Müdafiə Nazirliyi ilə razılaşdırılıb, münaqişənin həllində müsbət nəticə əldə etmək üçün indi görülən tədbirlər kifayətedicidir. AZƏRTAC xəbər verir ki, bu barədə Rusiya Federasiyası Dövlət Dumasının Müdafiə komitəsi sədrinin birinci müavini Andrey Krasnov RİA Novosti agentliyinə bildirib.

Xatırladaq ki, Dövlət Dumasının MDB işləri, Avrasiya inteqrasiyası və həmvətənlər ilə əlaqələr komitəsi sədrinin birinci müavini Konstantin Zatulin jurnalistlərə verdiyi müsahibədə desant çıxarması əməliyyatını Rusiyanın Dağlıq Qarabağdakı vəziyyətə reaksiya verməsinin bir variantı kimi istisna etmədiyini bildirmişdi.

“Konstantin Zatulin Dövlət Dumasının və Dövlət Dumasının Müdafiə komitəsinin rəsmi mövqeyi ilə əlaqəli olmayan şərhi vermək səlahiyyətinə malik deyildi. Hazırda Dağlıq Qarabağ münaqişəsi zonasında Rusiya silahlı qüvvələrinin iştirakı planlaşdırılmır. Bu mövqe Rusiya Federasiyası Müdafiə Nazirliyi ilə razılaşdırılıb”, - deyə A.Krasnov vurğulayıb. O, Dövlət Dumasının rəsmi mövqeyini yalnız onun sədri və ya onun tapşırığı ilə müavinləri və ya ixtisaslaşdırılmış komitənin ifadə edə biləcəyini bildirib. Deputat Rusiya Prezidenti Vladimir Putin, Xarici İşlər naziri Sergey Lavrov və Müdafiə naziri Sergey Şoyqunun bu münaqişənin həlli, hərbi əməliyyatların dayandırılması və vəziyyətin dinc danışıqlar prosesinə keçirilməsi üçün bütün lazımi tədbirləri gördüklərini də xatırladıb. “Bütün bu tədbirlər müsbət nəticə əldə etmək üçün kifayətedicidir”, - deyə o qeyd edib.

# Azərbaycanın gücü qarşısında işğalçı Ermənistan acizdir

*Milli Məclisin deputatı Ağalar Vəliyevin yap.org.az-a müsahibəsi*



***- Ağalar müəllim, Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev oktyabrın 20-də xalqa müraciəti zamanı yeni qələbə müjdəsi verdi. Zəngilan şəhəri və bu rayonun, eləcə də Füzuli, Cəbrayıl və Xocavənd rayonlarının bır sıra kəndləri işğaldan azad edildi. Bu barədə fikirlərinizi bilmək istərdik...***

- Rəşadətli Azərbaycan Ordusu sentyabrın 27-dən etibarən təcavüzkar Ermənistanın hərbi təxribatlarına cavab olaraq əks-hücum əməliyyatları ilə işğal altında olan ərazilərimizin azad edilməsi istiqamətində yeni-yeni qələbələr qazanır. Ölkə Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə ordumuz demək olar ki, hər gün irəliləyir, uğurlar əldə edir. Ordumuzun gücü qarşısında düşmənin hərbi birləşmələri döyüş mövqelərindən qaçır.

Əks-hücum əməliyyatlarının ilk günündə ordumuz, qəhrəman əsgərlərimiz Füzuli rayonunun bir neçə kəndini, bir sıra strateji yüksəklikləri, o cümlədən Murovdağ zirvəzini azad etdi. Həmin gündən sonra da qələbə xəbərləri bir-birinin ardınca xalqımızı sevindirir. Cəbrayıl şəhərinin və onun çoxlu sayda kəndlərinin, Hadrut qəsəbəsinin, Füzuli şəhərinin və onun bir çox kəndlərinin, eləcə də Xocavənd rayonunun bəzi kəndlərinin işğaldan azad edilməsi buna sübutdur. Cənab Prezident Azərbaycan son xalqına müraciətində də yeni qələbə müjdəsi verdi. Zəngilan şəhəri və onun bəzi kəndləri, eləcə də Cəbrayıl, Füzuli və Xocavənd rayonunun bir sıra kəndləri işğalçılardan azad olundu! Bu qələbələr münasibətilə bütün xalqımızı təbrik edirəm! Eşq olsun Azərbaycan Ordusuna! Yaşasın Ali Baş Komandan İlham Əliyev!

Ümumiyyətlə, Azərbaycan Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyev xalqa müraciətlərində, həm də xarici kütləvi informasiya vasitələrinə müsahibələrində prinsipial mövqeyini dəfələrlə bəyan edib. Bu mövqe ondan ibarətdir ki, Ermənistan işğal etdiyi Azərbaycan torpaqlarından çıxmalıdır. Bundan sonra məsələ siyasi müstəvidə həll oluna bilər. Amma biz hələ ki, erməni tərəfindən hər hansı konstruktiv mövqe görmürük. Əksinə, Ermənistanın baş naziri indiyədək mövcud olan münaqişənin həlli ilə bağlı baza prinsiplərini inkar edir. Bilirsiniz ki, oktyabrın 10-da Moskvada Rusiyanın vasitəçiliyi ilə tərəflər arasında humanitar atəşkəslə bağlı razılaşma əldə olundu. Amma erməni tərəfi dərhal bu razılaşmanı pozdu. Onlar ikinci dəfə də, yəni oktyabrın 18-də də atəşkəslə bağlı razılaşmaya əməl etmədilər, döyüş mövqelərimizi və yaşayış məntəqələrini intensiv atəşə tutdular. Bütün bunlar o deməkdir ki, işğalçı Ermənistan bu razılaşmalardan sui-istifadə edib itirdiyi mövqeləri geri qaytarmağa çalışır. Ümumiyyətlə, münaqişənin tarixində belə faktlar kifayət qədərdir. Mən təkcə bir faktı demək istəyirəm. 1992-ci ilin may ayında İranın vasitəçiliyi ilə Tehranda Azərbaycan və Ermənistanın rəhbərlərinin görüşdülər. Şuşa şəhəri məhz həmin görüş günü işğal olundu. Bu faktlar erməni xislətinin göstəricisidir. Paşinyan hakimiyyəti indi də atəşkəs razılaşmasından öz məqsədləri üçün istifadə etməyə cəhdlər göstərir. Amma unutmamalıdırlar ki, Azərbaycan 1990-cı illərin əvvəlindəki Azərbaycan deyil.

***- Təcavüzkar Ermənistan beynəlxalq hüquqa, müharibə qanunlarına zidd olaraq hərbi cinayətlər törədir. Mülki insanlar, yaşayış məntəqələri fasiləsiz olaraq atəşə tutulur. Buna münasibətiniz necədir?***

- Döyüş meydanında uduzan təcavüzkar Ermənistan mülki insanları hədəfə alır. İşğalçı erməni hərbi birləşmələrinin sentyabrın 27-də başladıqları hərbi təxribat nəticəsində Gəncə, Mingəçevir, Naftalan, Xızı, Abşeron, Goranboy, Daşkəsən, Tərtər, Bərdə, Ağdam, Ağcabədi, Yevlax, Füzuli və Beyləqan kimi şəhər və rayonları atəşə tutulur. Buradan da göründüyü kimi bəzi şəhər və rayonlar cəbhə xəttindən xeyli uzaqdır. Xüsusilə, Azərbaycanın ikinci böyük şəhəri olan Gəncə olan raket hücumu miqyası baxımından dəhşətlidir. Bu şəhərə atılan ballistik raketlər qadağan olunmuş silahdır və ermənilərin bu addımı hərbi cinayətdir. Gəncəyə edilmiş xain hücum nəticəsində 25 mülki şəxs həlak olub, 55 nəfər yaralanıb. Ölənlər arasında uşaqlar və qadınlar da var. Respublika Prokurorluğunun son rəsmi məlumatına əsasən, düşmənin xain hücumları nəticəsində ümumilikdə 63 mülki şəxs həlak olub, 300 nəfərə yaxın yaralanıb. 1940-dan çox ev, 90 çoxmənzilli yaşayış binası və 382 mülki obyekt yararsız vəziyyətə düşüb. İşğalçı Ermənistanın bu hücumları beynəlxalq hüquq normalarına və humanitar prinsiplərə, o cümlədən 1949-cu il Cenevrə konvensiyalarına ziddir. Azərbaycanın müvafiq dövlət qurumları, eləcə də cəmiyyətimizin bütün təbəqələri bu həqiqətləri dünya ictimaiyyətinə çatdırır. Bu istiqamətdə dünya ölkələrinə, beynəlxalq təşkilatlara rəsmi müraciətlər edilir, xarici kütləvi informasiya vasitələrində və sosial şəbəklərdə yayılır.

***- Ağalar müəllim, hazırda ölkəmizdə mövcud olan milli birliyi və cəmiyyətimizdəki ruh yüksəkliyini necə dəyərləndirirsiniz?***

- Bu gün cəbhədə ordumuzun uğurlar qazanması ilə yanaşı diplomatik cəbhədə də üstünlüyə sahibik. Hazırda diplomatiya sahəsində də davamlı olaraq nailiyyətlər əldə edirik. Belə ki, ötən illər ərzində diplomatiya sahəsində qazanılan uğurlar, beynəlxalq təşkilatların Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı qəbul etdiyi qərarlar bizim üstünlüyüzü artırıb. Bütün ölkələr Azərbaycanın ərazi bütövlüyünü tanıyır. Hazırda torpaqlarımızı hərbi yolla azad edərkən məhz bu tipli diplomatik uğurlara da istinad edirik. Bu gün rəsmi qurumlarımız diplomatik fəaliyyətini uğurla davam etdirir. İşğalçı Ermənistanın havadarlarının çox olmasına baxmayaraq, bu gün Azərbaycanın haqq işini dəstəkləyən dövlətlərin də sayı artmaqdadır. Ötən günlər ərzində müxtəlif dövlətlərin rəsmi qurumları tərəfindən verilən dəstək bəyanatları da bunu təsdiqləyir.

Təbii ki, indiki şəraitdə ölkəmizdə güclü milli həmrəylik və vətəndaş birliyi mövcuddur. Xalqımızda yüksək vətənpərvərlik ruhu var, hər bir vətəndaş qələbə xəbərlərinə köklənib. Cənab Prezidentin xalqa müraciətində verdiyi növbəti qələbə xəbərləri hər bir kəsi daha da ruhlandırır. O cümlədən, mənim təmsil etdiyim, cəbhə bölgəsində yerləşən Goranboy, Ağdam və Tərtər rayonlarının sakinləri də düşmənin qarşısında mərdliklə dayanıb, yüksək vətənpərvərlik mövqeyi nümayiş etdirirlər. İnşallah, tezliklə bütün torpaqlarımızdan işğalçılar qovulacaq, Azərbaycanın ərazi bütövlüyü tam təmin ediləcək! Qarabağ Azərbaycandır!

# Türkiyəli həmkarlarımıza minnətdarlıq edirik:

# REALLIQ + FOTOLAR











İşğalçı Ermənistanın Azərbayacana qarşı yürütdüyü dövlət terroruna qarşı hərbi əməliyyatlarımız başlayan andan qardaş Türkiyə dövlətinin birtərəfli qaydada ölkəmizə, xalqımıza rəsmi dəstək göstərməsi hər bir azərbaycanlının qəlbində böyük ruh yüksəkliyi yaratdı. Qardaş ölkənin hərbi, siyasi, parlament dairələrinin, onların rəhbərliklərinin, eləcə də sadə vətəndaşlarının istər sosial şəbəkələr vasitəsi ilə, istərsə də digər imkanlar yolu ilə davamlı dəstək göstərmələri özünü media sahəsində də sübuta yetirdi. Belə ki, Türkiyənin aparıcı TV-ləri, nəhəng media qurumları Azərbaycanın məngur, yağı və xain düşmənə qarşı apardığı mübarizəsini işıqlandırmaqla dünya ictimaiyyətinin diqqətinə çatdırmaqdadır. Qarabağ cəbhəsi ilə birgə, təcavüzkar Ermənistanın terrorçuluq mahiyyətlərini gerçəkləşdirdiyi və dinc şəhərlərimizi, mülki vətəndaşlarımızı, uşaq və qadınlarımızı raket atəşlərinə məruz qoyması faktlarını da dərhal, operativliklə beynəlxalq aləmə təqdim edən türk jurnalistləri bununla ölkəmizin haqq səsinə qarşı anti-təbliğat siyasəti aparan ermənipərəst media quurumlarının da sözün əsl mənasında ağızlarını yummağa müvəffəq olurlar.

Hansı hava şəraitindən, necə ağır mühitdən və vəziyyətdən asılı olmayaraq, gecə və gündüz xalqımızın yanında olan Türkiyəli həmkarlarımıza həqiqətən də böyük və sonsuz minnətdarlıqlar düşür!

Biz, elə də uzağa getməyərək onlarla qürurdoğurucu faktlardan təkcə bir faktı göstərə bilərik. Belə ki, "Haber Qlobal"ın reportyoru Osman Girgin və operatoru Gökhan Köşetaş Ermənistanın Gəncə şəhərinə raket atdığı gecə terror aktı törədilən yerə ilk gedən, bu vəhşiliyi dünyaya canlı yayımla bütün gecə boyu çatdıranlardanlardırlar. Həmin gecə Türkiyəli jurnalist bərk xəstələnir və səhərə yaxın halı daha da pisləşir. Ancaq o çəkilişlərini yarımçıq qoymur. Kanalın digər əməkdaşı Ela Sezen Gəncəyə gələnə qədər iş başında olur. Məhz bundan sonra o xəstəxanaya aparılır və məlum olur ki, Osmanda koronavirus yoluxması var. COVİD-19 testi pozitiv çıxan Osman Girgin daha sonra Bakıya, xəstəxanaların birinə çatdırılır. Artıq vəziyyətinin yaxşılığa doğru getdiyi bildirilən türk qardaşımız sağlığına tam qovuşduqdan sonra iş başına geri dönəcəyini bildirir.

Bu təkcə bir fakt idi və biz Türkiyədən olan həmkarlarımız barədə çox qürurlandırıcı hadisələrdən bəhs edə bilərik. Lakin son olaraq, onlara "Biz, Azərbaycan jurnalistləri sizlərə - Türkiyə jurnalistlərinə minnətdarıq!" deyirik.

***Rövşən RƏSULOV***

# İqor Korotçenko: “Qarabağ döyüşləri Azərbaycan ərazisində gedir, KTMT buna müdaxilə etməyəcək”

## *“Putin də açıq dedi, Azərbaycan öz ərazilərində müharibə aparır, onun hərəkətləri beynəlxalq hüquq baxımından tam qanunidir”*

***Rusiya Müdafiə Nazirliyi yanında İctimai Şuranın rəhbəri, “Milli Müdafiə” jurnalının baş redaktoru, nüfuzlu hərbi ekspert, polkovnik İqor Korotçenko “Pravda”nın internet versiyasının baş redaktoru İnna Novikovaya Dağlıq Qarabağda hadisələrin mümkün inkişafı, Rusiyanın milli maraqları baxımından vəziyyətin necə olduğu barədə danışıb.***



Həmin müsahibənin 2-ci hissəsini tədqim edirik.

**(Əvvəli burada)**
https://sia.az/az/news/politics/833382.html

***- İqor, Qarabağda baş verənlər barədə çox ətraflı və anlaşıqlı bir analiz verdiniz. Yəqin ki, Ermənistan-Azərbaycan münaqişəsi çox şiddətlidir, nifrət sadəcə miqyasdan çıxır. Sovet dövründə bunu təsəvvür etmək belə mümkün deyildi... Birinci Qarabağ müharibəsindən sonra hər zaman azərbaycanlılar Qarabağı qaytarmaq lazım olduğu ruhunda tərbiyə olunurdu ki, bu bizim dərdimiz, ürəyimiz, həyatımızdır. Bəziləri rahat Moskvadan orada döyüşmək və orada yaşamaq üçün oraya getməyə hazır olduqlarını söylədilər, çünki bu ərazini özlərinə məxsus hesab edirlər. Ermənilər də. Bu xalqların hər ikisi necə döyüşməyi bilir, hər iki ordunun döyüş təcrübəsi və müasir silahları var. Tərəflərdən heç biri, torpaqlarının bir qarışını belə verməyə meylli deyil. Buna görə müharibə bəlkə də uzun müddət davam edəcək və çox qanlı bir hekayə olacaqdır. Necə düşünürsünüz?***

- Böyük Vətən Müharibəsi illərində faşist Almaniyasına qarşı SSRİ uğrunda döyüşlərdə iştirak edən azərbaycanlılardan və ermənilərdən həm cəsarət, həm də qəhrəmanlıq nümunələri gördük. Əlbətdə ki, yaxşı və ya pis xalq yoxdur, erməni və Azərbaycan xalqı hörmətə layiqdir. Pis siyasətçilər var.

Mövcud vəziyyəti duyğulara deyil, beynəlxalq hüquq normalarına güvənərək mümkün qədər fərdi və obyektiv təsvir etməyə çalışıram. Əlbətdə ki, Ermənistana rəğbət bəsləyən izləyicilərə baxışım səhv görünəcək. Bəlkə də Azərbaycan tərəfi də məni tənqid edəcək.

Təəssüf ki, xalqlar çox vaxt siyasətçilərin səriştəsizliyinin və məsuliyyətsizliyinin qurbanı olurlar. Qarabağ münaqişəsinin fonuna nəzər salaq. Vətəndaş müharibəsi başa çatdıqdan sonra ölkəmizdə azərbaycanlılar və ermənilər vahid bir dövlətdə- Sovet Sosialist Respublikaları İttifaqında yaşamağa davam etdilər. SSRİ-nin millətlərarası siyasəti, həqiqətən, beynəlmiləlçilik və xalqların dostluğunu təmin etmək fikrindən irəli gəlirdi.

Bəlkə də indi buna gülə bilərsən, amma şəxsən Sovet təhsil sisteminin məhsulu olaraq mən mütləq beynəlmiləlçi bir insanam, mənim üçün milli zəmində pis insanlar yoxdur, hamı ilə son dərəcə normal davranıram, onların baxışlarına hörmət və münasibət bəsləyirəm.

Ermənilər və azərbaycanlılar SSRİ dövründə normal və hətta dostcasına yaşayırdılar. Praktik olaraq heç bir qarşıdurma yox idi və ortaya çıxanda da, sərt və çox tez söndürülürdülər.

Azərbaycan SSR ərazisində böyük bir erməni təbəqəsi var idi, SSRİ şəraitində real olduğu qədər iqtisadiyyat sistemində, partiya orqanlarında, iqtisadi elitada görkəmli bir mövqe tutdular. Ümumiyyətlə, Bakı beynəlxalq, çoxmillətli bir şəhər idi, orada nəhəng bir erməni icması var idi.

Eynilə, azərbaycanlılar Ermənistan SSR ərazisindəki icmaları və kəndləri ilə kompakt şəkildə yaxşı, mehriban və problemsiz yaşayırdılar. Azərbaycan SSR-in inzibati cəhətdən bir hissəsi olan Dağlıq Qarabağ Muxtar Vilayətinin ərazisində erməni və azərbaycanlı icmaları təxminən bərabər payda yaşayırdılar.

Səksəninci illərin ortalarına qədər, Qorbaçov hakimiyyətə gələnə qədər aralarında heç bir problem yox idi. Qorbaçov Sovet İttifaqının siyasi sistemini bədnam yenidənqurması, adekvat davrana bilməməsi nəticəsində balanssızlaşdırdı.

Nəticədə, Qorbaçovun zəifliyini, yeni düşüncə çağırışlarını hiss edərək, erməni sovet ziyalılarının bir hissəsi xaricdəki nüfuzlu erməni diasporunun dəstəyi ilə Dağlıq Qarabağ Muxtar Vilayətinin Azərbaycan SSR-dən Ermənistan SSR-ə verilməsi məsələsini qaldırmağa başladı.

Bütün bu ilk dağıdıcı hadisələr məhz burada baş verdi və bu münaqişənin patlayıcısı və başqalarına nümunə oldu. Nəticə etibarı ilə bütün bunlar birləşmiş Sovet İttifaqının dağılmasına səbəb oldu.

Baltiklərin separatizmlə bağlı bəyanatlarından xeyli əvvəl, Vilnüsdə, Riqada, Qazaxıstanda və s.-də baş verən bütün hadisələrdən əvvəl, bütün bunların başlanması erməni sovet ziyalılarının və erməni diasporunun xarici mərkəzlərinin təhriki ilə Dağlıq Qarabağda olmuşdu. İnsanlar deməyə başladı: imza ataq, tələb edək ...

Və sonra proses başladı. Bütün bunlar bu ərazidə vəziyyətin qeyr-sabitləşməsinə gətirib çıxardı və SSRİ-nin bir çox yerlərində separatçılıq hissləri gücləndi, millətlərarası birlik məhv edildi.

“Qarabağ” Hərəkatı fəaliyyətə başlamasaydı, Qarabağın Azərbaycan SSR-dən Ermənistan SSR-ə verilməsi məsələsi olmazdı, heç bir şey olmazdı. Bəlkə də, yenə də normal və sakit yaşayardılar. Ancaq sonra idarəolunmaz hadisələr başladı: Sumqayıtda və Bakıda “poqrom”lar, azərbaycanlıların Ermənistandan qovulması, Qarabağdakı və ətrafındakı hərbi əməliyyatlar ...

Əvvəlcə Qorbaçov nəzarəti itirdi, sonra ordunu cəlb elədi, ancaq hər iki tərəfin acıları və nifrəti artıq o hədlərə çatmışdı ki, daxili qoşunlarımız bu iki atəş arasında qaldı. Əvvəllər ermənilər və azərbaycanlılar bir-birləri ilə münasibətləri düzəldirdilərsə, indi ordu və daxili qoşunlara, hər biri öz tərəflərindən hücum etməyə başladılar. Budur- müharibə sonrakı bütün kabuslarla başladı.

***- İqor, Qarabağdakı millətlərarası qarşıdurma Sovet dövründə başladı. Sonra nə oldu?***

- Sovet İttifaqının dağılmasından sonra Rusiya oranı tərk edir və geniş miqyaslı müharibə, Ermənistandan azərbaycanlıların tamamilə qovulduğu, Dağlıq Qarabağa müdaxilə etməklə hərbi əməliyyatlar başlayır.

Elçibəyin rəhbərlik etdiyi Azərbaycan Xalq Cəbhəsi o dövrdə Bakıda hökm sürürdü. Təbii ki, Qarabağı kiməsə vermək fikrində deyildilər. Ancaq ermənilər Rusiyanın müdafiə naziri Pavel Qraçovun müəyyən dəstəyi ilə Ermənistan ərazisində yerləşmiş Sovet hərbi birləşmələrinin arsenallarından silah almağa müvəffəq oldular.

Hərbi əməliyyatlar zamanı yalnız Dağlıq Qarabağı deyil, onun ətrafındakı 7 rayonu da işğal etdilər. Döyüşlər 1994-cü ilə qədər davam etdi, 1994-cü ildə barışıq imzalandı və status-kvo əldə edildi. Bu vəziyyət əslində 2020-ci ilə qədər dəyişməz olaraq mövcud idi, yalnız 2016-cı ilin aprel ayında Azərbaycan və Ermənistan arasında müharibə zamanı Azərbaycan əvvəllər Ermənistanın ələ keçirdiyi bir sıra kiçik ərazilər üzərində nəzarəti bərpa edə bilmişdi.

Sonra yenidən danışıqlar oldu, beynəlxalq vasitəçilər tərəfindən təzyiqlər edildi, status-kvo təsdiqləndi. Ancaq indi- bu gün yenə müharibədir. Bu, ilk növbədə, razılaşmalar yerinə yetirilmədiyi üçün mümkün oldu. Kazan düsturunda Dağlıq Qarabağın statusunun sonraya təxirə salınması və əvvəlcə Ermənistan ordusunun 5 rayonu, daha sonra 2 rayonu azad edəcəyi bildirilirdi. Bu, Paşinyan tərəfindən həyata keçirilmədi.

İndi kimin əvvəlcə atəş açdığını söyləmək mənasızdır, müharibə gedir və təəssüf ki, indi hər şey döyüş meydanında həll olunur. Əlbətdə, eyni zamanda, Rusiya da başa düşür ki, tərəflərin hərbi imkanlarının həddi gec-tez tükənəcək, kimsə qalib gələcək, kimsə məğlub olacaq. Əslində, o zaman danışıqların mümkün olacağı şərtlər olacaqdır. Eyni zamanda, Prezident İlham Əliyevin dilə gətirdiyi Azərbaycanın mövqeyi son dərəcə sadədir.

***- İqor, gözəl danışırsınız, amma bu, tamamilə qeyri-realdır. Siz özünüz azərbaycanlılarla ermənilərin bir-birinə qarşı nə qədər nifrət etdiyini söylədiniz. Birinin orada qalmasına icazə verilərsə, qarşıdurma hər zaman bərpa oluna bilər...***

- Həm ermənilər, həm də azərbaycanlılar həqiqətən bir razılığa gəlmək istəmirlər və qalib gəlmək üçün bir fürsət və ümid olduğu müddətdə mübarizəni davam etdirəcəklər. Eyni zamanda, danışıqların mümkünlüyü ilə bağlı açıqlamalar verildiyini, danışıqların aparıldığını və Rusiyanın vasitəçiliyi ilə ciddi mübahisələri varsa belə, tərəflərin hansısa bir şey barədə razılığa gəldiklərini müşahidə edirik.

Ancaq bütövlükdə döyüşənlərin mövqeləri dəyişməyib. İlham Əliyevin əvvəlcə dediyi kimi, danışıqların nəticəsi Ermənistan qoşunlarının işğal olunan ərazilərdən çıxarılması üçün qanuni məcburi cədvəl olmalıdır. Bu, hərbi əməliyyatların dayandırılması üçün bir şərtdir. Tərəflərin burada konsensus tapa bilməyəcəyini görürük, buna görə təəssüf ki, müharibə bir müddət sakitləşsə də, davam edəcəkdir.

Üstəlik, kənar oyunçular indi burada görünür. Xarici Kəşfiyyat Xidmətinin rəhbəri Sergey Narışkin Yaxın Şərqdən və digər bölgələrdən yaraqlılar və terrorçuların münaqişə bölgəsinə köçürüldüyünə dair məlumatlar olduğu haqda bir açıqlama verdi. Eyni zamanda, həm Ermənistan, həm də Azərbaycan bir-birini ordularının hərbi əməliyyatlarının muzdlular tərəfindən dəstəklənməsində günahlandırır. Ancaq hələlik heç bir tərəf bizə meyitləri göstərmir.

***- İnformasiya müharibəsi mütləq həqiqi müharibəni müşayiət edir...***

- Bəli, Narışkinin verdiyi açıqlamadan başqa, Rusiya kəşfiyyatının da silahlıların münaqişə bölgəsinə köçürülməsinə çalışıldığı barədə məlumatlara sahib olduğunu göstərir. Orada onların olub-olmadığını bilmirəm, amma SVR-ə (Xarici Kəşfiyyat Xidməti-E.B.) tamamilə etibar edəcəyəm. Deməli, köçürməyə çalışırlar, bəlkə də artıq oradadırlar.

***- Hər halda, Türkiyə bu vəziyyətlə çox maraqlanır.***

- Əlbətdə, bu da var.

***- Ərdoğan sadəcə oradakı təsirini artırmaq istəyir? Yoxsa daha çox iddialı planları var? Onun Azərbaycanı maliyyələşdirdiyi və hərbi vasitələrlə təmin etdiyi bildirildi.***

- Maliyyələşdirilir deyiriksə, deməli, ödəmələri göstərmək lazımdır. Ancaq Ərdoğan həqiqətən də orada aktiv bir iştirakçı olduğunu açıq şəkildə bildirdi. Bəlkə də Ərdoğanla bir araya gəlməyə hazır ola bilərik, türklərlə hərbi-texniki işbirliyimiz də var.

İndi S-400 komplekslərinin 2-ci partiyasının Türkiyəyə tədarükü üçün 2-ci bir müqavilə imzalanır. Onlara nüvə stansiyası üçün reaktor artıq göndərilib. Yəni, iqtisadi əlaqələri qoruyuruq və hətta inkişaf etdiririk. Buna paralel olaraq, Türkiyənin bu bölgədəki səylərini özümüzə qarşı qəbul edirik. Buna görə də, bu, Moskvanın özünü birbaşa münaqişəyə cəlb etməmək üçün qüsursuz oynamalı olduğu çox çətin bir oyundur.

*Ardı Səh. 13*

# İqor Korotçenko: “Qarabağ döyüşləri Azərbaycan ərazisində gedir, KTMT buna müdaxilə etməyəcək”

## *“Putin də açıq dedi, Azərbaycan öz ərazilərində müharibə aparır, onun hərəkətləri beynəlxalq hüquq baxımından tam qanunidir”*

Əvvəli Səh. 12

Bağışlayın, kiminsə ambisiyaları üçün rus əsgərlərinin həyatını və pul ödəməməliyik. Bu mənim üçün dəmir-beton prinsipdir. Bu səbəbdən Qarabağda hərbi müdaxiləmizə ehtiyac yoxdur. Putin isə bunun olmayacağını söylədi. Ancaq Ermənistana bir hücum olarsa, bütün öhdəliklərimizi tam yerinə yetirəcəyik. Yenə də- hər şey öhdəliklərə uyğun və vəziyyətə görədir.

İndi isə Rusiyanın vəzifəsi siyasi və diplomatik yollarla tərəfləri danışıqlar masasına oturtmağa çalışmaqdır, bu da artıq görülmüşdür. Ancaq əslində, yalnız müharibə aparma potensialı tükəndikləri zaman danışıqlara oturacaqlar. O zaman Rusiyanın vasitəçilik səyləri daha da aktual və daha təsirli olacaqdır.

***- İqor, bir tərəfdən deyilir ki, Ermənistana bir hücum olarsa, Rusiya kömək edəcək və Qarabağ münaqişəsi Azərbaycanın daxili işidir. Ancaq onsuz da hər iki tərəfdən düşmənin ərazisinə atəş edilirdi. Ermənistan KTMT-yə qoşulduqda, eyni düşməni var idi. Axı heç bir Avropa və ya Afrika ölkəsinin Ermənistana hücum edəcəyi düşünülmürdü. Buna görə də, Ermənistan rəhbərliyi və xalqı, göründüyü kimi, belə bir ifadəni ən azından xəyanət kimi qəbul etdilər- bəzi mücərrəd düşmənlərlə deyil, Azərbaycanla qarşıdurmada bizdən kömək gözlədilər. Əlbəttə ki, KTMT Nizamnaməsinə görə, dövlətin özü kömək istəməlidir.***

- Hər hansı bir iddiaları varsa, aşağıdakı ünvana müraciət edilməlidir: Rusiya Federasiyası, Moskva, Kreml, Prezident Vladimir Vladimiroviç Putin. Putin bir vəkildir; bu baxımdan qüsursuz formulalar qurur və hər şeyi izah edəcəkdir.

Ermənistana hücum olacağı təqdirdə, Ermənistana hərbi yardım mexanizmindən istifadə edəcəyik və əgər Ermənistan Dağlıq Qarabağda Azərbaycana qarşı döyüşürsə, orada müdaxilə etməyimizə icazə verən qanuni sənədlər yoxdur.

Hər kəs problemi evdə axtarmalıdır. İndi Paşinyan dəfələrlə Putinə zəng edib. Bundan əvvəl Putin Robert Köçəryanın mühakimə olunmamasını istəmişdi. Paşinyan nə etdi?- yayınmağa davam etdi. Putin ona bir neçə dəfə müxtəlif kanallardan siqnallar göndərdi. Yenə özünü görməməzliyə vurdu.

Paşinyan KTMT-nin Baş katibi, general-polkovnik Xaçaturova qarşı cinayət işi qaldırmağa başlayanda hamı dedi ki, bu edilməməlidir, KTMT-nin nüfuzuna xələl gətirir, bütün bu təşkilata zərbə vurursan. Əvvəlcə müəyyən edilmiş qaydada geri çəkin və sonra işi açın. Paşinyan Moskvanın bu siqnallarına da məhəl qoymadı. Rus işini boğmağa başladıqda, ona da siqnallar göndərdilər: bunu etmə- sıfır reaksiya. Sonra Rusiyapərəst siyasətçilərin təmizlənməsi başladı. “Çiçəklənən Ermənistan” Partiyasının lideri, “Vahid Rusiya” Partiyasının tərəfdaşı Qagik Tsarukyan həbs edildi və işi ondan alındı.

Bir sıra rusiyapərəst siyasətçilər siyasi xəttin kənarına atıldı. Rus dilini məhdudlaşdırmağa başladılar, rus telekanalları qadağan edildi ... Yaxşı, indi nə olub? - O zaman indi Putini deyil, Sorosu və ya Amerika səfirini axtarın.

Rusiyanın buradakı siyasəti tamamilə aydındır: Paşinyanın ambisiyalarını rus əsgərlərinin həyatı ilə ödəməməliyik. Yumşaq desək, Paşinyan danışıqlar aparmaq iqtidarında deyilsə və əsas vəzifələrə təyin etdiyi Sorosun adamları kömək etsin.

***- Bu müharibənin nəticələri nədir?***

- Baş verə biləcək ən pis şey, tərəflərdən birinin itirdiyini başa düşdüyü zaman kəskinləşmədir. Hələlik üstünlük Azərbaycanın tərəfindədir, buna görə bundan başlayacağıq. Vəziyyət Azərbaycanın xeyrinə inkişaf etməyə davam edərsə, onda qorxuram ki, Ermənistan Azərbaycandakı kritik infrastruktura zərbə vurmaq üçün ağır silahlardan istifadə edə bilər. Və bu vəziyyətdə Azərbaycan qaçılmaz olaraq cavab verəcək, üstəlik Türkiyə müdaxilə edəcək. Və hamısı budur- vəziyyət indikindən daha pis bir şəkil alacaqdır. Və sonra böyük ölçüdə gözlənilməz olan hadisələr olacaq. İndi sağlam düşüncəyə arxalanmaq əbəsdir.

Bəlkə də özünü qoruma instinkti birtəhər hər iki tərəfi həddindən artıq sərt qərarlardan uzaqlaşdıracaq. Ancaq hadisələr artıq baş verdi və çox təhlükəlidir. Ən əsası, vəziyyətin ani və kəskin bir şəkildə pisləşməsi üçün yüksək potensial var. Bu, baş verə biləcək ən pis şeydir.

***- İndi ciddi danışıqlar, vasitəçilər və sülhməramlılardan danışmaq olarmı?***

- Uzun müddətdir ATƏT-də belə bir qrup var, lakin bu, yeni bir müharibənin başlanmasının qarşısını almadı. Bu, həqiqətən bir şeyə təsir edə biləcək bir vasitə deyil. Birdən Rusiya, Fransa və ABŞ, üstəlik Türkiyə tənzimləmədə iştirak etməyə hazır olduqlarını bildirsələr, həll məsələləri ciddi şəkildə müzakirə edilə bilər. Təsəvvür edək ki, bu 4 ölkənin qoşunları bölgəyə gedir. Ancaq bu mümkün deyil.

***- Belə çıxır ki, bu müharibəni hələ dayandırmaq mümkün deyil?***

- Siyasi metodlar burada işləmir. Ermənistan artıq danışıqlara hazırdır. Ancaq Azərbaycan hazır deyil- hərbi uğurlarını inkişaf etdirir. Niyə danışıqlar aparırdı? Ermənistan hərbi uğur qazansaydı, vəziyyət yəqin ki, başqa cür görünərdi.

Bəs Paşinyanın danışmağa hazır olduğu nədir? Siyasi karyerasına son qoyacaq sənədləri imzalamaq istəmir. Sadəcə status-kvonu düzəltmək, döyüş əməliyyatlarını və tərəfləri yeni təmas xətlərində dayandırmaq istəyir, hamısı budur. Azərbaycan 2 ölkəni dinləyə bilər: Rusiya və Türkiyə. Moskva ilə Ankara arasında bu vəziyyəti necə həll edəcəklərinə dair bir fikir birliyi olacaq. Eyni zamanda, Ermənistan Türkiyə vasitəçiliyi ehtimalı barədə eşitmək belə istəmir. Buna görə də, indi proses tamamilə çıxılmaz vəziyyətdədir. Hər şeyə döyüş meydanında qərar verildiyi bir vəziyyət.

***Tərcümə etdi: Elçin Bayramlı***

# Ter-Petrosyan və Koçaryan Paşinyanın yanına elçi yolladılar

## *Yaxud, Saakyan və Qukasyan baş nazirin yanından üzüqara qayıtsalar da, proseslər başqa tərəfə yönəlir*

***Ermənistanın “Hraparak” nəşrinin yazdığına görə, Ermənistanın xarici işlər naziri Zoqram Mnatsakanyanın Moskva səfəri uğursuz olub və onun Rusiya XİN rəhbəri ilə görüşündən hər hansı bir uğurlu nəticəni gözləməyə dəyməz. SİA adıçəkilən nəşrə istinadən xəbər verir ki, dünən axşam Moskvadan geri dönən erməni XİN rəhbəri dərhal baş nazir Nikol Paşinyanın yanına gedib.***

Lakin bütün bunlarla yanaşı, erməni nəşrinin toxunduğu daha bir maraqlı məqam Ermənistanın birinci və ikinci prezidentlərinin - Levon Ter-Petrosyanın və Robert Koçaryanın iqtidarın hərbi-siyasi rəhbərliyinin Qarabağ cəbhəsində uğradığı fiaskodan və məğlubiyyət vəziyyətindən istifadə etmələri ilə bağlıdır.

### Qarabağın Azərbaycana qaytarılmasını tələb edirlər

Daha dəqiq desək, hazırda Nikol Paşinyanın siyasi hakimiyyətinin son vaxtlarını yaşaması sirr deyil. Artıq Ermənistanın sadə vətəndaşları, ictimai rəyi cəbhədə kütləvi şəkildə öldürülən övladlarının hesabını baş nazirdən sormaq üzrədirlər. Əbəs deyil ki, son günlər ermənilərin sosial şəbəkə seqmentlərində böyük ağlaşma, hakimiyyətə nifrət statusları demək olar ki, minlərlədir. Hər kəs, xüsusilə qadınlar müharibənin dayandırılmasını, Qarabağın Azərbaycana qaytarılmasını tələb edirlər. Bu fakt isə axır vaxtlar həm də psixiki sarsıntı keçirdiyi aşkar görünən Paşinyanın durumunu daha da ağırlaşdırır.

### Ter-Petrosyan və Koçaryan qollarını çırmayaraq hazır vəziyyətə keçiblər

Beləliklə, vəziyyəti öz xeyirlərinə doğru yönəltməyə, sözün əsl mənasında Nikol Paşinyanı devirməyə qərarlı görünən Ter-Petrosyan və Koçaryan qollarını çırmayaraq hazır vəziyyətə keçiblər. Daha dəqiq desək, xalqı öz tərəflərinə çəkmək üçün tam məqamın olduğunu yaxşı bilən bu cütlük məhz qondarma “dqr”in iki sabiq “prezidentləri” -



Bako Saakyanla Arkadi Qukasyanı Nikol Paşinyanın yanına elçi göndəriblər ki, danışıqlara qatılsınlar. Yəni məqsəd, baş nazirin onların Moskvaya getmələrinə icazə almaqdır. Amma söz yox ki, erməni bicliyi digər erməni bicliyini üstələyib və Nikol Paşinyan onun yanıda elçi göndərilən Saakyanla Qukasyanı qovub, belə bir icazəni verməyəcəyini bildirib.

Beləliklə, nə baş verə bilər? Qarabağ cəbhəsində kütləvi şəkildə ölümə məhkum olan erməni əsgərlərinin valideynləri, bütövlükdə isə xalq ayağa qalxaraq müharibənin Azərbaycana uduzulduğunu bildirəcək və Nikol Paşinyanın linç olunmasını tələb edəcəklər. Ölkədə vəziyyət gərginləşəcək, istər Levon Ter-Petrosyan, istər Robert Koçaryan, istərsə də Serj Sarkisyan, eləcə də köhnə hakim elita yenidən ölkədəki situasiyanı əllərinə geri qaytarmaq üçün xalqın adından danışacaqlar və əlbəttə, artıq Qarabağın əldən verildiyini də etiraf edərək, bundan sonra ağır, çıxılmaz, hətta xəritədən silinmək üzrə olan Ermənistanın həmin situasiyadan çıxarılması yönündə addımlarını atacaqlar. Yəni bu gün Azərbaycanın terrorçu Ermənistanın burnunu ovması, yerində oturtması ardınca proseslərin də bənzər istiqamətlərdə gedəcəyini kifayət qədər ehtimal etmək olar.

***Rövşən RƏSULOV***

# Məşhur Məmmədov: "Ermənistan öz riyakarlığını növbəti dəfə göstərdi"



***"Son vaxtlar Ermənistan hökuməti tərəfindən həyata keçirilən təxribatçı fəaliyyət bir daha sübut edir ki, işğalçı ölkənin rəhbərliyi Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə nizamlaması üçün danışıqlar prosesindən çox uzaqdırlar. Rusiya Federasiyasının vasitəçiliyi ilə baş tutmuş Azərbaycan Respublikası və Ermənistan Respublikası Xarici İşlər nazirlərinin Moskva görüşü nəticəsində 10 oktyabr 2020-ci il tarixi saat 12.00-dan etibarən humanitar atəşkəsə riayət olunması razılığının əldə olunmasına baxmayaraq, Ermənistan silahlı qüvvələri bu razılığı kobud şəkildə pozmaqla bir daha riyakarlığını nümayiş etdirdi". Bu fikirləri "Səs" qəzetinə açıqlamasında Milli Məclisin İqtisadi Siyasət, Sənaye və Sahibkarlıq Komitəsinin üzvü Məşhur Məmmədov bildirib.***

M.Məmmədov onu da bildirib ki, Ermənistan silahlı qüvvələrinin humanitar atəşkəs razılaşmasından sonra dinc insanları və şəhərləri atəşə tutması barbarçılığın növbəti bariz nümunəsidir və Ermənistan rəhbərliyinin atəşkəs çağırışlarının riyakarlıqdan başqa bir şey olmadığını göstərir: "11 oktyabr gecə saatlarında Azərbaycanın ikinci böyük şəhəri olan və cəbhə bölgəsindən xeyli kənarda yerləşən Gəncə şəhəri Ermənistan silahlı qüvvələri tərəfindən raket atəşinə məruz qalıb. Ermənistan silahlı qüvvələrinin həyata keçirdiyi növbəti hərbi təcavüzü nəticəsində içərisində uşaq, qadın və ahıl insanların da yaşadığı çoxmənzilli binalarda 9 nəfər həlak olub. Eləcə də 34 nəfər yaralanıb, çoxsaylı mülki infrastruktur obyektlərinə külli miqdarda ziyan dəyib, hələ də dağıntılar altında qalan insanlar var. Dövlət başçımız Gəncədə baş verən hadisələrlə bağlı bildirib ki, bu Ermənistanın terrorçu ölkə olmasını bir daha göstərir".

Millət vəkili onu da vurğulayıb ki, baş verən növbəti Gəncə hadisəsi bir daha erməni faşizminin sifətini nümayiş etdirir: "Dövlət başçımız dəfələrlə çıxışlarında vurğulayıb ki, bizim hədəflərimiz erməni silahlı birləşmələrinin mövqeləri, texnikası, canlı qüvvəsidir: "Bizim hədəflərimiz erməni silahlı birləşmələrinin mövqeləri, texnikası, canlı qüvvəsidir. Amma onlar bizim kəndlərimizi, şəhərlərimizi atəşə tuturlar, 13 dinc insan həlak olub, 40-dan çox mülki şəxs yaralanıb, 168 ev dağıdılıb. Budur erməni faşizminin sifəti. Onlar döyüş meydanında bizim qarşımızda dura bilmirlər, kəndlərimizi, şəhərlərimizi vururlar. Amma orada yaşayan soydaşlarımızın hamısı yerindədir, hamısı "Vətən sağ olsun" deyirlər. Bir santimetr geri addım atmayıblar və əminəm ki, atmayacaqlar. Onlar əmindirlər ki, Azərbaycan Ordusu onları müdafiə edəcək. Onlar səbirsizliklə o anı gözləyirlər ki, işğal edilmiş torpaqlarda Azərbaycan bayrağı qaldırılsın və işğala son qoyulsun". Bu fikirləri dövlət başçımız haqq yolundan, Vətən yolunda canından keçərək yaralanan və Müdafiə Nazirliyinin Mərkəzi Hərbi Klinik Hospitalında müalicə olunan hərbçilərlə görüşü zamanı bildirib və qeyd edib ki, biz haqq yolunda, öz torpağımızda vuruşuruq, Vətən uğrunda vuruşuruq: "Bizim işimiz haqq işidir, biz öz torpağımızda vuruşuruq, Vətən uğrunda vuruşuruq. Bizim davamız ədalətli davadır və əminəm ki, bu münaqişədə biz istədiyimizə nail olacağıq, haqq-ədalət öz yerini tapacaq və Azərbaycan öz ərazi bütövlüyünü bərpa edəcək. Uzun illər ərzində məcburi köçkün kimi yaşayan soydaşlarımız da öz doğma dədə-baba torpaqlarına qayıdacaqlar".

***RƏFİQƏ HÜSEYNOVA***

# Baş Prokurorluq xarici ölkə vətəndaşlarına xəbərdarlıq etdi

***Azərbaycan Respublikasının Baş Prokurorluğu tərəfindən aparılmış araşdırmalarla son günlərdə müxtəlif terror təşkilatlarının üzvlərinin, o cümlədən xarici ölkə vətəndaşlarının dövlət sərhədini müəyyən edilmiş sənədlər olmadan Ermənistan ərazisindən qanunsuz keçərək Azərbaycan Respublikasının işğal olunmuş ərazilərinə gəlib qanunsuz silahlı birləşmələr yaratmaları, eləcə də ərazilərimizin işğalına yönələn təcavüzkar müharibədə muzdlu kimi istifadə edilmələri müəyyən edilib.***



Bu barədə SİA-ya Baş Prokurorluqdan məlumat verilib. Məlumatda bildirilir ki, bu kimi qanunsuz halların qarşısının alınması məqsədilə xarici ölkə vətəndaşlarının Azərbaycan Respublikasının ərazisinə hansı qaydada gəlmələri ilə bağlı fransız, ispan, alman, rus, ingilis və ərəb dillərində növbəti dəfə maarifləndirici video çarxlar hazırlanıb.

Xarici vətəndaşlardan Azərbaycan Respublikasının silahlı qüvvələrinə qarşı, eləcə də Azərbaycan Respublikasının ərazilərinin işğalına yönələn təcavüzkar müharibədə muzdlu kimi iştirak etməmələri tələb olunur.

# Cavanlığım



Neyləsin bu ürək çarəsiz qalıb
Köksünə min əzab-min dərdi salıb
Cismim üzərinə ağır yük olub
Bir heç oldu, hədər oldu cavanlığın
***
Yardım istə yaxın duran olmayacaq
Dar günündə sənlə kimsə qalmayacaq
Dost dediyin səni yada salmayacaq
Başdan sona kədər oldu cavanlığım
***
Əl açaraq dua etdim yaradana
Məni möhtac eləmə heç bir insana
Puç olanda ömrüm rahat yetsin sona
Yarı qalmış əsər oldu cavanlığım

**Azərbaycan - Türkiyyə**

Bir-birini sevəcək,
Doğru yolla gedəcək
Düşməni dəf edəcək
Azərbaycan, Türkiyə
***
Sülhü sevən bir ölkədir
Xainlərə dərs verir
Cahanda güc qüvvədir
Azərbaycan, Türkiyə
***
Vətənpərvər insan
Məhv edəcək nadanı
Təbliğ edir İslamı
Azərbaycan, Türkiyə
Uğurları qabaqdadır
Arzuları qucaqdadır
Atəşi bir ocaqdadır
Azərbaycan, Türkiyə

**Təbiət**
Gözəl gülün ətri gəlir
Gülün dilin güllər bilir
Güldə gülə baxıb gülür
Varam belə gözəlliyə
***
Quşların cikkilti səsi
Təbiətin xoş nəğməsi
Qarçıçəyi, bənövşəsi
Varam belə gözəlliyə
***
Baxdıqca dərdim azalır
Gözlərim xəyala dalır
Çiçəklər min rəngə çalır
Varam belə gözəlliyə

***Nicat Eyyubov***

# DİN əhaliyə xəbərdarlıq edir




Vətəndaşlar tərəfindən daxili işlər orqanlarına edilən bütün müraciətlər operativ şəkildə araşdırılır və nəticəsindən asılı olaraq müvafiq tədbirlər görülür. Daxili İşlər Nazirliyinin (DİN) Mətbuat Xidmətindən SİA-ya verilən məlumata görə, nazirlik əhaliyə xəbərdarlıq edib. Nazirliyin məlumatında deyilir: "Əhalinin nəzərinə bir daha çatdırırıq ki, qanunvericiliyə uyğun olaraq təhlükəsizlik tələblərinin pozulması, insanların həyatına və sağlamlığına, ictimai asayişə təhlükə yarada biləcək və ya terror şübhəsi halları ilə bağlı dərhal Daxili İşlər Nazirliyinin "102" Xidməti Zəng mərkəzinə məlumat verilməlidir. Bununla yanaşı, xatırladırıq ki, bilərəkdən yalan məlumatlar verməklə insanlar arasında təşviş və süni ajiotaja səbəb olacaq hərəkətlərə yol verən şəxslər barəsində ən ciddi məsuliyyət tədbirləri görüləcəkdir".

# Arayik Arutyunyan yenə erməni xalqına yalvardı



Azərbaycan Silahlı Qüvvələrinin Ermənistanın işğalı altında olan Dağlıq Qarabağ və ətraf əraziləri azad etmək uğrunda əks-hücum əməliyyatları qətiyyətlə davam edir. Cəbhədə böyük itkilər verən və heç bir beynəlxalq yardım ala bilməyən Ermənistan hökuməti çarəni öz xalqında axtarmağa başlayıb. Qondarma Dağlıq Qarabağ "prezidenti" Arayik Arutyunyan erməni xalqına müraciət edib. SİA xəbər verir ki, o, bütün kilsələrdən əsgərlər üçün dua etmələrini istəyib. Arutyunyan qələbə üçün inamın lazım olduğunu bildirib: "Səhər yuxudan duran hər bir erməni qələbə üçün dua etməlidir. Cəbhəyə gedin və döyüşün. Bunu uzatmayın. Sizi təmas xəttində gözləyirlər".

# Şuşa



Bu gecə yuxuma girmişdi Şuşa,
Qolu qandallıydı, yarası dərin.
Amma görkəmində sevinc var idi
Sanki hiss etmişdi iyin zəfərin.
Bu gecə yuxuma girmişdi Şuşa,
Turşsuyu sevincdən coşub daşırdı.
Gələn əsgərlərin bu zəfərinə,
O da öz səsiylə nəğmə qoşurdu
Bu gecə yuxuma girmişdi Şuşa,
Küskün baxışlarla seyr etdi məni.
Dinmədim, utandım xəcalətimdən,
Deyə bilmədim ki, bağışla məni.
Bu gecə yuxuma girmişdi Şuşa,
Qala qapısın da açıb taybatay
Gözləyir fərəhlə Şanlı Ordusun,
Sevincdən dayanmır salıb hay-haray.
Bu gecə yuxuma girmişdi Şuşa,
Xan da məzarından "Segah" deyirdi.
Qoşulub əsgərə Cıdır düzündə
Rəislə birlikdə yallı gedirdi.
Bu gecə yuxuma girəcək Şuşa,
Görəcəm bayrağı qapısındadır.
O uca dağların o uca çayı,
Şirin bir azadlıq yuxusundadır.

***Məmmədov Səbuhi Nəhməd oğlu,
Cəlilabad rayon Uzuntəpə kənd E.Yusifov adına
1 saylı tam orta məktəbin riyaziyyat müəllimi***

# Azərbaycan dünya birliyini necə və nədən xilas etdi?

**II Yazı**

Dağılmaqda olan dünya birliyi, nüfuzunu itirmiş BMT, ATƏT kimi beynəlxalq təşkilatlar Azərbaycanın sayəsində öz mövqelərini qaytara, dünya sürükləndiyi fəlakətdən qurtula bilər. Necəmi? Bu yazıda izah edəcəyik.

*(Əvvəli burada)*

https://sia.az/az/news/politics/833362.html

Ermənistanın BMT və digər beynəlxalq təşkilatların qətnamələrinə tüpürərək Azərbaycanda ermənilərin yaşadığı keçmiş muxtar vilayətə heç bir aiddiyyatı olmayan, ermənilər yaşamayan Ağdam və Ağdərə rayonlarını da işğal etməsindən sonra artıq dünya birliyi Ermənistana qarşı daha sərt mövqe qoymalı idilər. Lakin dünya susdu, BMT isə, bu dəfə mətni bir qədər geniş olan növbəti qətnamə qəbul etməkdən başqa heç nə etmədi. Baxaq görək, TŞ-nin 2-ci qətnaməsində nədən söhbət gedirdi. (qətnamələr ixtisarla verilir, yalnız əsas məqamlar olmaqla- E.B).

## BMT Təhlükəsizlik Şurasının 853 saylı qətnaməsi

29 iyul 1993-cü il tarixdə Təhlükəsizlik Şurası 1993-cü il 30 aprel tarixli 822 (1993) saylı qətnaməsini təsdiq edərək,... (arada keçən qətnamənin girişindəki ümumi sözlər) bölgədəki fövqəladə humanitar vəziyyətlə əlaqədar yenə də ciddi narahatlıq keçirdiyini ifadə edərək:

**1.** Azərbaycan Respublikasının Ağdam rayonunun və bu yaxınlarda zəbt olunmuş bütün digər rayonlarının işğalını pisləyir;

**2.** Bölgədə gələcəkdəki bütün düşmənçilik hərəkətlərini, o cümlədən mülki şəxslərə hücumları və yaşayış rayonlarının bombalanmasını və top atəşlərinə tutulmasını pisləyir;

**3.** Bütün hərbi əməliyyatların təxirə salmmadan dayandırılmasını və münaqişədə iştirak edən işğal qüvvələrinin Azərbaycan Respublikasının Ağdam rayonundan və bu yaxınlarda işğal olunmuş bütün digər rayonlardan dərhal, tamamilə və qeyd-şərtsiz çıxarılmasını tələb edir;

**4.** Əlaqədar tərəfləri atəşin dayandırılması haqqında razılığa gəlməyə və bu razılaşmalara əməl etməyə çağırır;

**5.** Bölgədə iqtisadi, nəqliyyat və energetika əlaqələrini bərpa etməyə dair özünün əvvəlki çağırışlarını yuxarıdakı 3 və 4-cü bəndlər baxımından bir daha təsdiq edir;...

**9.** Ermənistan hökumətinə Azərbaycanın Dağlıq Qarabağ bölgəsi ermənilərinin 822 (1993) saylı qətnamənin müddəalarına əməl etməsi və ATƏM-in Minsk qrupunun təkliflərini həmin tərəfin qəbul etməsi məqsədilə öz təsirini göstərməyi davam etdirməyə təkidlə çağırır;

**10.** Dövlətləri münaqişənin güclənməsinə və ya ərazinin işğalınm davam etdirilməsinə gətirib çıxara biləcək hər hansı silah və ləvazimat göndərməkdən çəkinməyə təkidlə çağırır;

**11.** Mülki əhalinin artmış iztirablarını yüngülləşdirmək üçün bölgədə, xüsusən münaqişənin əhatə etdiyi bütün rayonlarda humanitar yardım göstərilməsi sahəsində beynəlxalq fəaliyyətin maneəsiz həyata keçirilməsini təmin etməyə yenidən çağırır və bir daha təsdiq edir ki, bütün tərəflər beynəlxalq humanitar hüququn prinsiplərinə və normalarına əməl etməyə borcludurlar;...

Göründüyü kimi, qətnamədə müəyyən "irəliləyiş" var- ən azı bəndlərin sayı artıb, lakin Ermənistan üçün bu, sadəcə kağız parçasıdır. BMT isə, İraqa qarşı etdiyini Ermənistana qarşı etmək istəmir. Yəni, işğalçını işğal etdiyi ərazilərdən beynəlxalq hərbi koalisiyanın gücü ilə çıxarmaq barədə heç düşünmür də.

Qafqazda isə, müharibə alovlanır. Buna əvvəlcədən yaxşı hazırlaşmış və böyük dövlətlərdən də silah, texnika, maliyyə almaqda olan Ermənistan hələ öz ordusunu formalaşdırmağa imkan tapmayan Azərbaycanın yeni-yeni ərazilərini işğal etməyə davam edir.

Bu qətnamədən sonra avqust ayında Cəbrayıl, Füzuli və Qubadlı rayonları işğal olundu. Yəni, etikanı zadı kənara qoyub, hər şeyi öz adı ilə çağırsaq, Ermənistan BMT-nin və dünya birliyinin üzünə daha 3 dəfə tüpürdü.

Buna "cavab olaraq" BMT TŞ bir də 3 ay sonra ayılır. Oktyabrda qəbul etdiyi 3-cü qətnamədə keçən qətnamədən sonra işğal edilmiş Azərbaycan rayonlarının adlarını sıralamağa "utanır" və ümumi sözlə ifadə edir. Keçən qətnamənin yerinə yetrilmədiyinə görə işağlçı ölkəyə qarşı sərt tədbirlər həyata keçirilməsi yenə də nəzərdə tutulmur.

Normaldır, dünya ictimaiyyətinə necə desinlər ki, planetimiz boyda BMT hansısa Qafqazda yerləşən, dünya xəritəsində görünməyən cıqqılı bir işğalçı və terrorçu dövlətin əlində aciz qalıb? Necə desinlər ki, bu terrorist dövlətə işğal və soyqırım aktlarını həyata keçirməkdə elə həmin BMT-nin aparıcı dövlətləri kömək edir? Necə desinlər ki, başqa hallarda işləyən beynəlxalq hüquq hansısa möcüzəli səbəbdən Ermənistana gəldikdə işləmir. Necə desinlər ki, BMT və digər beynəlxalq təşkilatlar dünyada ancaq böyük dövlətlərin mənafelərini qorumaqla məşğuldur.

Yalnız səlahiyyətsiz ağsaqqallar məclisi olaraq daha kəsərsiz və daha yumşaq növbəti qətnamə qəbul etməkdən başqa heç nə etmirlər. Ona görə də, növbəti qətnamədəki boşboğazlıq daha maraqsızdır və heç oxumağa da dəyməz, amma biz yenə də oxusaq məsləhətdir.

## BMT Təhlükəsizlik Şurasının 874 saylı qətnaməsi

14 oktyabr 1993-cü il tarixində Təhlükəsizlik Şurası özünün 1993-cü il 30 aprel tarixli 822 saylı və 1993-cü il 29 iyul tarixli 853 saylı qətnamələrini təsdiq edərək... (arada həmişəki boşboğazlıq) Azərbaycan Respublikasının və regiondakı bütün başqa dövlətlərin suverenliyini və ərazi bütövlüyünü bir daha təsdiq edərək... Azərbaycan Respublikasında böyük sayda mülki şəxslərin köçkün vəziyyətə düşməsi ilə əlaqədar özünün ciddi narahatlığını ifadə edərək:

**1.** Əlaqədar tərəfləri ATƏM-in Minsk qrupuna dəstək olaraq Rusiya Federasiyası hökumətinin köməyi ilə birbaşa əlaqələr nəticəsində müəyyən olunmuş atəşkəsi səmərəli və daimi etməyə çağırır;

**2.** ATƏM çərçivəsində həyata keçirilən sülh prosesini, habelə ATƏM-in Minsk qrupunun daimi səylərini tamamilə dəstəklədiyini bir daha bəyan edir;

**3.** 1993-cü il sentyabrın 28-də ATƏM-in Minsk qrupunun müşavirəsində hazırlanmış və qrupun sədri tərəfindən əlaqədar tərəflərə təqdim olunmuş və həmin qrupun digər 9 üzvünün hərtərəfli dəstəklədiyi "Təhlükəsizlik Şurasının 822 (1993) və 853 (1993) saylı qətnamələrinin həyata keçirilməsinə dair təxirəsalınmaz tədbirlərin yeniləşdirilmiş cədvəli"ni alqışlayır, tərəflərin buna diqqət yetirməsini tövsiyə edir və tərəfləri həmin cədvəli qəbul etməyə çağırır;

**4.** Əmin olduğunu bildirir ki, münaqişədən doğan və "Yeniləşdirilmiş cədvəl"də bilavasitə nəzərdən keçirilməyən bütün başqa həll edilməmiş məsələləri ATƏM-in Minsk prosesi baxımından tezliklə sülh danışıqları çərçivəsində həll etmək lazımdır;

**5.** Qüvvələrin bu yaxınlarda işğal edilmiş ərazilərdən çıxarılması, kommunikasiya və nəqliyyat üçün olan bütün maneələrin aradan qaldırılması da daxil olmaqla, ATƏM-in Minsk qrupunun "Yeniləşdirilmiş cədvəl"də nəzərdə tutulmuş qarşılıqlı və təxirəsalınmaz tədbirləri dərhal həyata keçirməyə çağırır;...

**8.** ATƏM-in müşahidə üçün yaratdığı missiyanı dəstəkləyir;...

**10.** Regiondakı bütün dövlətləri münaqişənin genişlənməsinə, bölgədə sülh və təhlükəsizliyin pozulmasına səbəb ola biləcək hər hansı düşmənçilik hərəkətlərindən, işə hər hansı şəkildə qarışmaqdan və ya hərbi müdaxilədən çəkinməyə təkidlə çağırır..."

Bax belə... Bu, artıq mənasız tövsiyyələrin təcavüzkarı daha da cəsarətləndirməsinə səbəb olur. Bundan sonra Ermənistan daha da azğınlaşır, yeri ərazilər işğal edir, soyqırım və terror aktlarını davam etdirir, sanki BMT qətnamələrindən ruhlanır, dünyaya meydan oxuyur, artıq Beynəlxalq Səlahiyyətsiz Ağsaqqallar Şurasına çevrilmiş BMT isə bunu seyr edir...

Düzdür, bir müddət sonra daha bir- 4-cü və sonuncu qətnamə qəbul edəcək, lakin artıq dünya ictimaiyyətinə özünün lazımsız, "dişsiz", heç nəyə yaramayan təşkilat olduğunu qəti və təkzibedilməz şəkildə sübut etmişdir...

Həm də Ermənistan artıq qətnamə zad vecinə almadığını da qətil şəkildə ortyaya qoymuş və bunu dünyanın üzünə çırpmışdır. Problemin həlli üçün BMT TŞ-nin veto hüquqlu daimi üzvlərindən seçilmiş ATƏT-in Miskn Qrupunun hər 3 həmsədri açıq və birbaşa şəkildə Ermənistanı dəstəkləyir, onu maliyyə, silah, texnika ilə təmin edir. Hər dəfə danışıqlarda kritik situasiya yarananda "tərəflər özləri razılığa gəlsin, biz də dəstəkləyərik" kimi axmaq bəyanatlar verməklə özlərini rüsvay eləyirlər.

Vəziyyətdən açıq şəkildə belə məlum olur ki, mövcud olmayan dünya birliyinə güvənmək olmaz, hər ölkənin problemini onun özü həll etməlidir, əgər ölkənin ərazisi işğal olunubsa bunu onun ordusu azad etməlidir. Beləliklə, aydın olur ki, "dünya birliyi", beynəlxalq birlik" kimi saxta ifadələr mənasızdır.

Beynəlxalq təşkilatlar yalnız kağız-kuğuz düzəltməklə məşğul olur. BMT TŞ formal olaraq bu istiqamətdə fəaliyyətini davam etdirir, yəni qətnaməbazlığından əl çəkmir, lakin artıq dünyaya hər şey aydın olmuşdur- beynəlxalq birlik dağılmış, beynəlxalq hüquq kənara atılmış, dünya ölkələri öz problemlərini özü həll etməyə dəvət olunmuşdur.

Bu sonuncu qətnamə biabırçılıq haqda növbəti yazıda. Burada isə Azərbaycanın BMT qətnamələrini yerində həyata keçirərək dünya birliyini hansı biabırçılıqdan xilas etməsinə daha çox əmin oldunuz. Növbəti yazıda artıq heç kimin şübhəsi qalmayacaq.

Davamı olacaq

**Elçin Bayramlı**

**Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu**

*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi" istiqaməti çərçivəsində hazırlanıb.*

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

# Səs

**23 oktyabr**

Son səhifə

## Koronavirus Ronaldodan əl çəkmir...



***İtaliyanın "Yuventus" klubunun və Portuqaliya millisinin futbolçusu Kriştiano Ronaldonun koronavirus testinin nəticəsi yenidən müsbət olub. Belə ki, 35 yaşlı hücumçu karantində qalmağa davam edəcək.***

Futbolçu UEFA Çempionlar Liqasının qrup mərhələsinin ikinci turu çərçivəsində İspaniyanın "Barselona" komandası ilə oktyabrın 29-da keçiriləcək görüşü buraxacaq. Turin təmsilçisi oktyabrın 25-də A Seriyası matçında "Verona"nı qəbul edəcək. Qeyd edək ki, Ronaldoda koronavirus oktyabrın 13-də aşkarlanıb.

## "Arsenal" Avropa Liqasına qələbə ilə başladı



Futbol üzrə UEFA Avropa Liqasının qrup mərhələsinə start verilib. London "Arsenal"ı səfərdə Vyana "Rapid"inə qarşı meydana çıxıb. Bir çoxlarının bu qarşılaşmada favorit kimi göstərdiyi London klubu, çətinliklə də olsa qələbə qazanıb. "Topçular" Vyana təmsilçisi üzərində 2:1 hesablı qələbəyə seviniblər

## Nikaha daxil olmaq istəyən şəxslərin tibbi müayinəsi qaydası dəyişir

***Nikaha daxil olmaq istəyən şəxslərin tibbi müayinəsi qaydası dəyişir. Xezerxeber.az-ın məlumatına görə, bu, Milli Məclisin oktyabrın 27-də keçiriləcək iclasının gündəliyinə daxil edilən və birinci oxunuşda müzakirəyə çıxarılacaq "Azərbaycan Respublikasının Əmək Məcəlləsində və Azərbaycan Respublikasının Ailə Məcəlləsində dəyişiklik edilməsi haqqında" qanun layihəsində əksini tapıb.***



Qanun layihəsinə əsasən, nikaha daxil olmaq istəyən şəxslərin tibbi müayinəsi, habelə həmin şəxslərə tibbi-genetik, tibbi-psixoloji və ailənin planlaşdırılması məsələləri üzrə məsləhət verilməsi onların müraciəti ilə yaşayış yeri üzrə dövlət və (və ya) bələdiyyə tibb müəssisələrində müvafiq olaraq dövlət və ya yerli büdcənin vəsaitləri hesabına ("Tibbi sığorta haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq xidmətlər zərfində nəzərdə tutulduğu halda isə icbari tibbi sığorta vəsaitləri hesabına) həyata keçiriləcək.

## "Böyük dəbilqə" turnirində 17 cüdoçumuz mübarizə aparacaq



Oktyabrın 23-25-də Macarıstanın paytaxtı Budapeştdə cüdo üzrə "Böyük dəbilqə" turnirində Azərbaycan millisinin 17 cüdoçusu medallar uğrunda mübarizə aparacaq. Azərbaycan Cüdo Federasiyasının açıqlamasında deyilir ki, kişilər arasında Kəramət Hüseynov, Davud Məmmədsoy (hər ikisi 60 kq), Nicat Şıxəlizadə, Orxan Səfərov (hər ikisi 66 kq), Rüstəm Orucov, Telman Vəliyev (hər ikisi 73 kq), Hidayət Heydərov, Murad Fətiyev (hər ikisi 81 kq), Məmmədəli Mehdiyev, Rüfət İsmayılov (hər ikisi 90 kq), Elmar Qasımov, Zelim Kotsoyev (hər ikisi 100 kq), Uşangi Kokauri və Camal Feyziyev (+100 kq) qüvvələrini sınayacaqlar.

Aişə Qurbanlı, Leyla Əliyeva (hər ikisi 48 kq) və Gültac Məmmədəliyeva (52 kq) isə qadın idmançıların yarışında ölkəmizin idman şərəfini qoruyacaqlar. Qeyd edək ki, 80 ölkədən 624 cüdoçunun qatılacağı turnirdə idmançılar Tokio Olimpiadasına reytinq xalları da qazanacaqlar.

## "Real" öz meydanında uduzub



***Futbol üzrə UEFA Çempionlar Liqasının qrup mərhələsinin növbəti oyunları keçirilib. Turun ikinci oyun günü erkən başlayan görüşlərdə Ukraynanın "Şaxtyor" klubu səfərdə Madrid "Real"ının qonağı olub. Görüş ukraynalıların 3:2 hesablı qələbəsi ilə başa çatıb.***

"Şaxtyor" hər 3 qolu birinci hissədə vurub. Görüşün 29-cu dəqiqəsində Tete, 33-cü dəqiqəsində Rafael Varan (avtoqol) və Manor Solomon fərqləniblər. Fasilədən sonra madridlilər Luka Modriç (54) və Vinisiusun (59) sayəsində hesab arasındakı fərqi azaltsa da məğlubiyyətdən qaça bilməyib. Paralel keçən görüşdə "Zaltsbuq" (Avstriya) və "Lokomotiv" (Rusiya) üz-üzə gəlib. Həmin oyunda qalib müəyyənləşməyib - 2:2.

## "Qarabağ" "Makkabi"yə uduzdu



Futbol üzrə UEFA Avropa Liqasında qrup mərhələsinə start verilib. Turnirdə ölkəmizi təmsil edən "Qarabağ" da yer aldığı I qrupunda ilk oyununa çıxıb. Ağdam klubu İsraildə "Makkabi"nin qonağı olub və 0:1 hesabı ilə uduzub.

Qrupun digər oyununda "Vilyarreal" "Sivasspor"u qəbul edib və 5:3 hesablı qələbə qazanıb.

## "Milan"dan İbrahimoviçə yeni müqavilə təklifi

İtaliyanın "Milan" klubu əsas qol silahı sayılan Zlatan İbrahimoviçə yeni müqavilə təklif edib. AZƏRTAC İtaliya mətbuatına istinadla xəbər verir ki, isveçli futbolçuya 2022-ci ilədək yeni anlaşma təklif olunub. Xatırladaq ki, bu mövsüm 39 yaşlı futbolçu dörd oyunda beş qol vurub.



**Baş redaktor:**
Bəhruz Quliyev
**Baş redaktorun müavinləri:**
Valeh Məhərrəmli
Fətulla Həsənov

Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
Tel:598-33-90 Faks:493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in kompüter mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur
Tiraj: 4600